# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 iyun 2026-cı il, çərşənbə axşamı

№ 111 (7178)

Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# İlham Əliyevin təşəbbüsü: Türk Dünyası Bakıda




## Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi”nin açılış mərasimi olub

Bax səh. 2



## Qarşıdakı üç il üçün Yol xəritəsi

Bax səh. 3



Bax səh. 4

## “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsi başa çatıb

## Yeni su layihələri aqrar sektorun inkişafına güclü təkan verəcək



Bax səh. 5

## Azərbaycan-Türkiyə birliyi: sarsılmaz regional güc...

Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. “Bir millət, iki dövlət” prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə...

Bax səh. 5

## Qeydiyyatsız evlərin sənədləşməsində yenilik

Qeydiyyatsız evlərin sənədləşməsində mühüm yenilik gözlənilir. Torpaq Məcəlləsinə təklif edilən yeni dəyişikliklərə əsasən, Azərbaycanda bütün daşınmaz əmlaklar, o cümlədən torpaq sahələri mülkiyyət növündən asılı olmayaraq vahid elektron sistemdə birləşdiriləcək. Dövlət kadastrı müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə tam elektron qaydada aparılacaq. Artıq dövlət kadastrına məlumatların...

Bax səh. 6

## Paris yeni reallıqları qəbul etməkdə çətinlik çəkir?

Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Rəsmi Paris “ermənilərdən çox ermənilik” edərək hər fürsətdə ölkəmizlə bağlı qərəz və böhtan dolu mövqe sərgiləyir. İyunun 23-də Fransa Milli Assambleyasının üzvlərinin ünvanladıqları suallara cavab olaraq, “Dağlıq Qarabağdan köçürülmüş” ermənilərə dəstək, “erməni məhbuslarının taleyi və onların azad edilməsi”, “erməni dini və mədəni irsi,” “Azərbaycan-Ermənistan...

Bax səh. 6

## Pxenyan müharibə hazırlığındadır?

Şimali Koreya Yaponiyanın Quru Özünümüdafiə Qüvvələri ilə ABŞ Dəniz Piyadaları Korpusunun keçirdiyi birgə hərbi təlimi qınayaraq, onu “müharibə məşqi” adlandırıb. Koreya Mərkəzi Xəbər Agentliyinin (KCNA) dərc etdiyi redaksiya məqaləsində Yaponiyanın “Qətiyyətli əjdaha 2026” təlimində iştirakı tənqid olunub və ölkə “işğal qabiliyyətini” gücləndirməkdə ittiham edilib.

Məqalədə fevral ayında keçirilmiş ABŞ-Yaponiya birgə təliminə də istinad olunaraq...

Bax səh. 7

## İRƏVAN ZİYALILARINDAN ƏLİ QƏMƏRLİNSKİ

Milləti millət edən xalqın tarixini yazan, zamanın, dövrün ən çətin sınaqlarında ona dayaq olan böyük şəxsiyyətlərdir. Qüdrətli nəsillərin yetişdirdiyi böyük şəxsiyyətlər həm də millətin çırağıdır. Millət bu çıraqların işığı ilə qaranlıqlardan adlayıb, aydınlığa çıxa bilib. Qüdrətli nəsillərin yetişdirdiyi o böyük şəxsiyyətlər kimisi qələmi ilə millətin gözünü açıb, kimisi sözü ilə maarifin çırağını yandırıb, milləti və yurdu yüksəldiblər...

Bax səh. 7



# Bu dəfə Dohada...

Bax səh. 7



# 100 il sonra... Yenidən Bakıda!

## Türk dünyası nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır

Prezident ilham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə deyilir: "Hörmətli iştirakçılar! Sizi Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12 ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur. Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır. Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mövcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır".

Müraciətdə o da vurğulanır ki, Türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı: "Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada süni maneələrlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik. Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır. Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır".

Müraciətdə qeyd olunub ki, Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik: "İnanıram ki, Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır".

# İlham Əliyevin təşəbbüsü: Türk Dünyası Bakıda

## Əsrə bərabər Həftə!

## Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin açılış mərasimi olub






















İyunun 29-da Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" başlanıb. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.

Heydər Əliyev Mərkəzində həftənin əsas tədbiri - "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin rəsmi açılış mərasimi keçirilib. Konqresdə türk respublikaları daxil olmaqla ümumilikdə 20 ölkədən rəsmilər, müxtəlif elmi mərkəzlərdən126 türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına müraciətini səsləndirib."Türk Dünyası Həftəsi"nin açılış mərasimində Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin konqres iştirakçılarına müraciətləri oxunub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciətində bildirilib ki, Birinci Türkoloji Qurultay Türk dünyasının ortaq tarix, dil və mədəniyyət şüurunun formalaşmasında mühüm rol oynayıb. Müraciətdə qeyd olunub ki, 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın iştirakçıları qəbul etdikləri qərarlar və ortaya qoyduqları elmi baxışlarla təkcə öz dövrünə deyil, bu günə də işıq salan irs formalaşdırıblar. Müraciətdə, həmçinin vurğulanıb ki, Qurultayın miras qoyduğu idealları yaşatmaq, gücləndirmək və gələcək nəsillərə ötürmək bütün Türk dünyasının ortaq məsuliyyətidir. Diqqətə çatdırılıb ki, Türk Dövlətləri Təşkilatının fəaliyyəti də İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik" prinsipi əsasında getdikcə daha da dərinləşir və Birinci Türkoloji Qurultayın müəyyənləşdirdiyi baxış bu gün də yolgöstərici rolunu oynayır. Eyni zamanda, diqqətə çatdırılıb ki, Türkiyənin əsas məqsədi Türk dünyasının ortaq tarixinə, dilinə və mədəniyyətinə sahib çıxaraq, bu irs üzərində "Türk əsri"ni birlikdə inşa etməkdir.

Prezident qeyd edib ki, 1926-cı ildə Birinci Türkoloji Qurultayın məhz Bakıda keçirildiyi kimi, onun 100 illiyinə həsr olunmuş tədbirin də Azərbaycan paytaxtında təşkil olunması təsadüfi deyil. Onun sözlərinə görə, Türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin müraciətində bildiriib ki, Azərbaycan bu gün Türk dünyasında xüsusi yer tutur. Birinci Türkoloji Qurultay bütün Türk dünyası üçün əhəmiyyətli tarixi hadisə idi: "Qurultay qardaş ölkələrin sarsılmaz birliyinin göstəricisinə çevrilib. Həmin qurultayda irəli sürülən ideyalar bu gün də aktuallığını itirməyib".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin müraciətində qeyd olunub ki, Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və ictimai həyatının inkişafında yeni bir dövrün başlanğıcını qoyan tarixi hadisə kimi yadda qalıb. Müraciətdə vurğulanıb: "Türk dünyası nümayəndələri ilə birlikdə bu forumun keçirilməsini türk xalqlarını birləşdirən ortaq dəyərlərə göstərilən yüksək ehtiramın təzahürü kimi qiymətləndiririk. Bu, türk xalqları arasında dostluq və birliyin daha da möhkəmləndirilməsi baxımından mühüm tarixi addım olacaq".

Qırğızıstan Prezidenti Sadır Japarov müraciətində Birinci Türkoloji Qurultayın 1926-cı ildə Bakıda keçirilməsinin türk xalqlarının intellektual, mədəni və siyasi birliyinin formalaşmasında tarixi dönüş nöqtəsi olduğunu bildirib. Müraciətdə, həmçinin qeyd olunub: "100 il əvvəl Bakıda keçirilən Birinci Türkoloji Qurultay "Dildə, fikirdə, işdə birlik" şüarı altında türk xalqlarının gələcəyini müəyyənləşdirən, türk dünyasının intellektual dirçəlişinin əsasını qoyan mühüm tarixi hadisə olub. Qurultayın 100 illiyi türk dünyasının intellektual, mədəni və siyasi inteqrasiyasının əsrlik yolunun mühüm mərhələsi kimi dəyərləndirilə bilər".

Müraciətdə, eyni zamanda, vurğulanıb ki, mürəkkəb siyasi şəraitə baxmayaraq, Qurultayda türk dilləri, terminologiya, orfoqrafiya, eləcə də ərəb qrafikasından latın əlifbasına keçid məsələləri ətrafında geniş müzakirələr aparılıb. Qeyd edilib ki, həmin forum təkcə alimlərin toplantısı deyil, müxtəlif siyasi və coğrafi səbəblərlə bir-birindən ayrı düşmüş türk xalqlarının qarşılıqlı anlaşmaya, həmrəyliyə və qardaşlığa doğru atdığı tarixi addım olub. Müraciətdə bildirilib ki, Birinci Türkoloji Qurultayın irsi bu gün də aktuallığını qoruyur və türk xalqları arasında elmi, mədəni, humanitar və strateji əməkdaşlığın inkişafı üçün mühüm istiqamət rolunu oynayır.

Sonra Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Azərbaycan Birinci Türkoloji Qurultayın irsinə hər zaman böyük diqqət və ehtiramla yanaşır, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq Sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd olunur. Bu, Azərbaycan dövlətinin Türk dünyasının ortaq elmi və mədəni irsinə verdiyi yüksək dəyərin bariz nümunəsidir.

"Bu gün biz sadəcə bir yubileyi qeyd etmirik. Biz yüz il əvvəl Bakıda əsası qoyulmuş böyük bir ideyanın - ortaq mədəniyyət və mənəvi birlik ideyasının bir əsrlik tarixini qeyd edirik. İnanıram ki, keçiriləcək görüşlər yeni elmi təfəkkürün, yeni ideyaların və yeni əməkdaşlıq körpülərinin yaranmasına mühüm töhfə verəcək", - deyə nazir diqqətə çatdırıb.

Adil Kərimli, həmçinin bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin tədbirləri Qarabağda - Şuşa, Xankəndi və Ağdam şəhərlərində də davam edəcək.

Nazir vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda yenidən qurulan hər bir şəhər, bərpa olunan hər bir abidə və yenidən həyat qazanmış hər bir məkan Azərbaycanın dirçəlişini və bütövlükdə Türk dünyasının həmrəylik ruhunu ifadə edir.

"İnanırıq ki, bu qurultay Türk dünyasının ortaq tarixində əlamətdar hadisə kimi qalacaq və gələcək nəsillər üçün dəyərli irs yaradacaq", - deyə o qeyd edib.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də Türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıdığını deyib: "Qəbələ Sammitində qəbul olunan bəyannamələrdə və "Türk Dünyası - 2040" vizyonunda əksini tapan hədəflər Türk dövlətlərinin birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edir. Onun sözlərinə görə, Birinci Türkoloji Qurultayın yüz il əvvəl ortaya qoyduğu ideyalar bu gün Türk Dövlətləri Təşkilatının fəaliyyəti çərçivəsində uğurla davam etdirilir".

Kubanıçbek Ömüralıyev vurğulayıb ki, son illər türk dövlətləri arasında siyasi dialoq, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib. Bu əməkdaşlığın təməlində ortaq tarix, dil və mədəni irs dayanır.

Baş katib əlavə edib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlər ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və Türk dünyasında inteqrasiya prosesinin daha da güclənməsinə töhfə verəcək.

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov çıxışında Birinci Türkoloji Qurultayın Türk dünyasının elmi, mədəni və siyasi tarixində mühüm dönüş nöqtəsi olduğunu bildirib. O qeyd edib ki, bu qurultay yalnız elmi toplantı deyil, həm də türk xalqlarının ortaq kimliyini və birliyini nümayiş etdirən tarixi hadisə idi.

Akademik vurğulayıb ki, türk xalqlarının birliyi ideyası əsrlər boyu formalaşıb və bu yolda böyük maarifçilər, alimlər və ziyalılar mühüm xidmətlər göstəriblər. Müasir dövrdə türk dövlətləri arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmlənməsi Birinci Türkoloji Qurultayın irsinin davamı kimi qiymətləndirilməlidir.

Akademik qeyd edib ki, Azərbaycan bu prosesdə mühüm rol oynayır və ölkə rəhbərliyinin Türk dünyasının birliyinə verdiyi dəstək ortaq dəyərlərin qorunmasına və inkişafına xidmət edir.

Çıxışlardan sonra Türk dünyasının tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub. Beynəlxalq konqres öz işini plenar iclas və panel sessiyalarla davam etdirib.

İyulun 3-dək davam edəcək "Türk Dünyası Həftəsi" Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə gerçəkləşir.

# Qarşıdakı üç il üçün Yol xəritəsi

## Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib





İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış edib. Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənib: “Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır”.



Birinci vitse-prezident Mehriban Əliyeva qeyd edib ki, süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq: “Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır”.

Daha sonra rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev “Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verib. Qeyd edib ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu deyib.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verib, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlərin davam etdirildiyini vurğulayıb. “Mygov” platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirib.





Rəqəmsal inkişaf və nəqliyyat naziri fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, “mygov” və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini deyib. Rəşad Nəbiyev innovasiya ekosisteminin inkişafı məsələlərinə toxundu, texnoloji suverenliyi gücləndirən sahələrdə fəaliyyət göstərən şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanıldığını vurğulayıb və kibertəhlükəsizlik sahəsində görülən işlərdən danışıb. Qeyd edib ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov rəqəmsal sahədə qanunvericilik üzrə islahatlar barədə Birinci vitse-prezidentə məlumat verib. Şahmar Mövsumov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlətimizin başçısının bu ilin fevralında imzaladığı Fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradıldığını və “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı”nın təsdiqləndiyini xatırladan Şahmar Mövsumov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatların hazırlandığını deyib. Vurğulayıb ki, bu, postsovet məkanında rəqəmsal ekosistemin inkişafı və tənzimlənməsi istiqamətində həyata keçirilən ən əhatəli və fundamental islahat təşəbbüsüdür.



Şahmar Mövsumov islahatın əhatə etdiyi sahələrə toxunaraq bildirib ki, bunlar hüquqi müəyyənliyin təmini, rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi, elmi-tədqiqat və innovasiya təşviqləri, istedadların cəlb edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və kibertəhlükəsizlik sahəsində tənzimləmənin təkmilləşdirilməsidir.



Prezidentin köməkçisi bu islahatların mühüm cəhətlərindən biri kimi onların dünya təcrübəsinə əsaslandığını deyib, dəyişikliklər hazırlanarkən müxtəlif ölkələrin uğurlu modellərinin öyrənildiyini qeyd edib.

Elm və təhsil naziri Emin Əmrullayev ölkədə təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər və gələcək planlar barədə Birinci vitse-prezidentə məlumat verib. Nazir təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təminatı, “Rəqəmsal məktəb” layihəsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşması, təhsil sənədlərinin elektronlaşdırılması məsələlərinə toxunub, növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu deyib.

Emin Əmrullayev, həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı üçün məktəblərdə həyata keçirilən “Rəqəmsal bacarıqlar”, “STEAM Azərbaycan” layihələrini qeyd edib, bu istiqamətdə insan kapitalının inkişafının təmin edilməsinin də əsas prioritetlərdən biri olduğunu vurğulayıb. İclas müzakirələrlə davam etdirilib.

# Qazaxıstan Prezidentinin müşaviri: Bakıdakı beynəlxalq tədbir Türk dünyasının birliyinə mühüm töhfə verəcək




Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Bakıda keçirilən beynəlxalq tədbir Türk dünyasının elmi-mədəni əməkdaşlığının möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır və gələcək inteqrasiyaya mühüm töhfə verəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Qazaxıstan Prezidentinin müşaviri, tanınmış qazax yazıçısı Malik Otarbayev deyib. O bildirib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu tarixi yubileyə xüsusi önəm verir və onun təbrik müraciəti də qurultay iştirakçılarına çatdırılıb.

“Çox yüksək səviyyədə təşkil olunmuş bugünkü tədbir 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilib. Biz Qazaxıstan Prezidenti adından bu tədbirdə dövlət başçımızın təbrik müraciətini təqdim etdik. Prezident Kasım-Jomart Tokayev bu əlamətdar tarixə böyük önəm verir“, - deyə Malik Otarbayev vurğulayıb.

Onun sözlərinə görə, yubiley münasibətilə may ayında Almatıda Türk Akademiyası və Əl-Fərabi adına Qazax Milli Universitetinin birgə təşkilatçılığı ilə də xüsusi simpozium keçirilib və həmin tədbirdə də Prezidentin təbrik məktubu səsləndirilib. Malik Otarbayev qeyd edib ki, Bakıda keçirilən tədbir il ərzində Türkoloji Qurultayın 100 illiyi münasibətilə təşkil olunan silsilə tədbirlərin yekun mərhələsini təşkil edir.

“Bu gün burada Qazaxıstanla yanaşı, Özbəkistan, Qırğızıstan, Türkmənistan və digər türk dövlətlərinin nümayəndələri, eləcə də Türk Dövlətləri Təşkilatının üzvləri iştirak edərək dövlət başçılarının təbrik müraciətlərini çatdırdılar. İnanıram ki, bu yüksək səviyyədə təşkil olunmuş tədbir Türk dünyasının gələcək inkişafına, birliyinin möhkəmlənməsinə və əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verəcək”, - deyə Qazaxıstan Prezidentinin müşaviri əlavə edib.

# TDT-nin Baş katibi: Bakıda keçirilən tədbirlər ortaq tariximizə verilən dəyərin və gələcəyə baxışımızın ifadəsidir




Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin Bakıda keçirilməsi Türk dünyasının ortaq tarixinin və gələcəyə yönəlmiş əməkdaşlığının rəmzidir. 1926-cı ildə Bakıda təşkil olunmuş qurultay necə tarixi əhəmiyyət daşıyırdısa, bu gün keçirilən tədbir də türk dövlətləri arasında birliyin daha da möhkəmlənməsinə xidmət edir.

Bu fikirləri jurnalistlərə açıqlamasında Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev deyib.

Baş katib bildirib ki, Türkoloji Qurultayın 100 illiyinin, eləcə də TDT-nin qeyri-rəsmi Zirvə Görüşünün Azərbaycanın ev sahibliyi ilə keçirilməsi Türk dünyasının inteqrasiyasına mühüm töhfə verir.

“Bu gün Bakıda keçirilən tədbirlər ortaq tariximizə verilən dəyərin və gələcəyə baxışımızın ifadəsidir. Bu gün qəbul ediləcək qərarlar və irəli sürülən təşəbbüslər ölkələrimiz və xalqlarımız üçün tarixi əhəmiyyət daşıyacaq. Bu, yalnız keçmişimizi anmaq deyil, həm də gələcək nəsillər üçün möhkəm təməl formalaşdırmaq deməkdir”, - deyə Kubanıçbek Ömüralıyev vurğulayıb.

TDT-nin Baş katibi qeyd edib ki, türk dövlətlərini birləşdirən yalnız ortaq tarix deyil, həm də ortaq dil, əlifba və mədəni dəyərlərdir. Onun sözlərinə görə, bu istiqamətdə atılan addımlar Türk dünyasının gələcək inteqrasiyasının əsas sütunlarından birini təşkil edir.

# Qırğızıstan naziri: Bakıdan verilən mesaj Türk dünyasının birliyini nümayiş etdirir

Birinci Türkoloji Qurultayın 100 ildən sonra yenidən




Bakıda keçirilməsi Türk dünyasının ortaq tarixə, dilə və mədəni irsə sadiqliyini, eyni zamanda, gələcəyə yönəlmiş birliyini nümayiş etdirən mühüm mesajdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Qırğızıstanın mədəniyyət, informasiya və gənclər siyasəti naziri Mirbek Mambetəliyev deyib.

Qırğızıstan Prezidenti Sadır Japarovun tədbir iştirakçılarına müraciətini oxumağın onun üçün böyük şərəf olduğunu bildirən nazir əlavə edib: “Qırğız xalqı adından Prezidentin təbrikini və müraciətini səsləndirmək mənim üçün böyük şərəfdir. Birinci Türkoloji Qurultayın 100 ildən sonra yenidən Bakıda keçirilməsi çox böyük məna daşıyır. Bu gün Bakıdan verilən əsas mesaj türk dövlətlərinin birliyinin, ortaq dəyərlərinin və gələcəyə birlikdə addımlamaq iradəsinin nümayişidir”.

Mirbek Mambetəliyev qeyd edib ki, bu cür beynəlxalq platformalar türk xalqları arasında elmi, mədəni və humanitar əməkdaşlığın daha da güclənməsinə, ortaq irsin gələcək nəsillərə çatdırılmasına mühüm töhfə verir.

“Azərbaycan Mədəniyyət Nazirliyi ilə hazırda Azərbaycan və Qırğızıstan xalqlarının ortaq tarixi, birliyi və birgə yaşayışı barədə filmlərin çəkilişinə dair danışıqlar aparırıq. Ümid edirəm ki, Qırğızıstan və Azərbaycan xalqları bu cür birgə layihələrin şahidi olacaq”, - deyə nazir əlavə edib.

# “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsi başa çatıb










Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində təşkil olunan “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsi başa çatıb.

İsmayıllı rayonu ərazisində yerləşən “Qaya” istirahət mərkəzində keçirilən layihənin bağlanış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov çıxış ediblər.

Qeyd olunub ki, “Heydər Əliyev məktəbi” layihəsi gənclərin intellektual inkişafına, onların milli-mənəvi dəyərlərə və dövlətçilik prinsiplərinə bağlı ruhda formalaşmasına mühüm töhfə verir. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və təbliği məqsədilə təşkil olunan bu cür layihələr gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyət daşıyır.

Natiqlər layihənin “Şəhərsalma və Memarlıq İli” çərçivəsində keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb, Azərbaycanın müasir şəhərsalma siyasətinin və memarlıq ənənələrinin inkişafında Ümummilli Liderin xidmətlərini diqqətə çatdırıblar.

Layihə iştirakçıları Pəri İbrahimova, İsrafil Abbasov və digərləri düşərgə barədə təəssüratlarını bölüşüblər.

Daha sonra “Heydər Əliyev məktəbi” layihəsinin iştirakçılarına sertifikatlar, intellektual yarışlarda qələbə qazanan komandalara xatirə kubokları verilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ortaq türk əlifbası inteqrasiya yolunda tarixi nailiyyətdir




Ortaq türk əlifbasının qəbul edilməsi türk dövlətləri arasında elmi, təhsil və mədəni inteqrasiyanın dərinləşməsi istiqamətində son illərin ən mühüm nailiyyətlərindən biridir. AZƏRTAC xəbər verir ki, bunu Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev panel sessiyada çıxışı zamanı deyib.

O bildirib ki, 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultayın əsas qərarlarından biri türk xalqlarının latın qrafikalı əlifbaya keçidi ilə bağlı olub. Sonrakı siyasi proseslər bu ideyanın həyata keçirilməsinə mane olsa da, türk dövlətləri müstəqillik əldə etdikdən sonra bu məsələyə yenidən qayıdıb.

“2022-ci ildə Türk Akademiyasının nəzdində Ortaq Türk Əlifbası Komissiyası yaradıldı. 2022-2024-cü illərdə komissiyanın bir neçə iclası keçirildi və 2024-cü ilin sentyabrında Bakıda 34 hərfdən ibarət “Ortaq türk əlifbası” layihəsi təqdim olundu. Bu, Türk dünyasının inteqrasiyası yolunda atılmış mühüm elmi addımdır”, - deyə Ş.Mustafayev bildirib.

Akademiyanın prezidenti əlavə edib ki, qurum, eyni zamanda, “Türk dünyasının müqəddəs coğrafiyası”, “Türk runik yazılarının ilk kataloqu”, “Ortaq terminologiya bazası” və digər fundamental layihələri də həyata keçirir. Bu təşəbbüslər türk xalqlarının ortaq elmi və mədəni irsinin sistemli şəkildə öyrənilməsinə xidmət edir.

Ş.Mustafayev həmçinin qeyd edib ki, Türk əməkdaşlıq təşkilatlarının qarşısında duran əsas vəzifələrdən biri fəaliyyətin daha səmərəli əlaqələndirilməsi və yeni geosiyasi reallıqlara uyğun mexanizmlərin formalaşdırılmasıdır. Onun sözlərinə görə, türk əməkdaşlıq təşkilatları indiyədək türk dövlətləri arasında inteqrasiyanın möhkəmlənməsində mühüm rol oynayıblar. Lakin dəyişən beynəlxalq şərait yeni yanaşmalar tələb edir. “Əsas məsələlərdən biri təşkilatlar arasında koordinasiyanın daha da təkmilləşdirilməsidir. Mövcud resurslardan səmərəli istifadə üçün fəaliyyətin uzlaşdırılması vacibdir. Digər mühüm istiqamət isə dövlətlərimizin inkişaf dinamikasına və geosiyasi reallıqlara uyğun olaraq əməkdaşlıq mexanizmlərinin yenilənməsidir”, - deyə Ş.Mustafayev bildirib.

Akademiya prezidenti vurğulayıb ki, türk dövlətləri artıq beynəlxalq münasibətlər sistemində vahid mövqe nümayiş etdirməyə başlayırlar və bu prosesdə əməkdaşlıq təşkilatlarının rolu daha da artır.

“İndiyədək təşkilatlar əsasən Türk dünyasının daxilində inteqrasiyanı gücləndirirdi. Artıq növbəti mərhələdə onların beynəlxalq platformalarda türk dövlətlərinin ortaq maraqlarını və mövqeyini daha fəal şəkildə ifadə etməsi vacibdir”, - deyə Şahin Mustafayev əlavə edib.

# Azərbaycan ictimaiyyətindən açıq məktub

## Müharibə cinayətkarlarının müdafiəsi ilə bağlı süni kampaniyalar rədd edilir

Bəzi Qərb ölkələrində ermənipərəst təşkilatlar tərəfindən müharibə cinayətkarı Ruben Vardanyan da daxil olmaqla, Azərbaycanda məhkum edilmiş bir sıra müharibə cinayətkarlarının “qurban” kimi qələmə verilməsi ilə bağlı aparılan kampaniyalara qarşı Azərbaycan ictimaiyyət nümayəndələri sərt mövqe nümayiş etdirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan QHT-lərinin, şəhid ailələrinin, itkin düşmüş şəxslərin yaxınlarının, mina terroru qurbanlarının, keçmiş məcburi köçkünlərin yaydıqları Açıq Məktubda Ruben Vardanyanın və digərlərinin törətdikləri ağır cinayətlərə, separatizmi və terrorizmi maliyyələşdirməsinə görə məhkum edildikləri bildirilib. Qeyd olunub ki, onların adı ilə süni şəkildə qurulan kampaniyalar bu cinayətlərin real qurbanlarının - onilliklər boyu münaqişə, işğal, etnik təmizləmə, terror və mina təhlükəsindən birbaşa zərər çəkmiş minlərlə azərbaycanlının haqlı səsini boğmaq və kölgədə qoymaq məqsədi daşıyır.

Sənəddə vurğulanır ki, Azərbaycan vətəndaş cəmiyyəti uzun illərdir beynəlxalq strukturlara müraciətlər ünvanlayaraq müharibə cinayətləri qurbanlarının hüquqlarının müdafiəsini, tarixi ədalətin bərqərar olunmasını və beynəlxalq məsuliyyət prinsiplərinin qorunmasını tələb edir. Bu kontekstdə ABŞ Prezidenti Donald Trampa ünvanlanmış Açıq Məktub (https://en.apa.az/foreign-policy/azerbaijani-ngos-address-open-letter-to-us-president-donald-trump-487462), ABŞ Konqresində irəli sürülmüş birtərəfli təşəbbüslərlə bağlı kəskin etiraz müraciətləri (https://azertag.az/en/xeber/4264859), həmçinin Lemkin İnstitutu (https://report.az/en/foreign-politics/azerbaijani-ngos-call-on-us-based-lemkin-institute-to-apologize), Böyük Britaniya parlamentinin üzvləri (https://www.azernews.az/nation/254843.html) və digər beynəlxalq təsisatlara göndərilən bəyanatlar xatırladılır. Müraciət müəllifləri xüsusi olaraq bəyan edirlər ki, Azərbaycanın öz suveren ərazilərində törədilmiş ağır cinayətləri araşdırmaq, qanunun aliliyini təmin etmək və təqsirkar şəxsləri məhkəmə qarşısına çıxarmaq hüququ və öhdəliyi həm daxili qanunvericilikdən, həm də fundamental beynəlxalq hüquq normalarından irəli gəlir və bu suveren hüquqa kənar müdaxilə yolverilməzdir.

Sənəddə onilliklər ərzində itkin düşmüş şəxslərin ailələrinin beynəlxalq birliyə etdiyi çoxsaylı çağırışların cavabsız qaldığı, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyinin bu gün də naməlum saxlanıldığı və 3400-dən çox mina qurbanının humanitar faciəsinin qlobal kampaniyalarda qərəzli şəkildə diqqətdən kənarda saxlanıldığı faktlarla ifşa olunur. Xüsusilə itkin düşmüş oğlu ilə bağlı xəbər belə ala bilmədən, ömür boyu dərin daxili əzablar içində yaşayaraq ötən il vəfat edən Elmira Dadaşovanın acı taleyi beynəlxalq ictimaiyyətin nümayiş etdirdiyi ikili standartlardan və vurulmuş mənəvi zərər nümunələrindən biri kimi göstərilir.

Məktubda bildirilir ki, 2025-ci ilin avqustunda Vaşinqtonda “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsinin paraflanması regionda fundamental və yeni inkişaf mərhələsinin əsasını qoyub. Bununla yanaşı, qətiyyətlə vurğulanır ki, Cənubi Qafqazda davamlı sülh yalnız keçmişdə törədilmiş ağır müharibə cinayətlərinə dürüst hüquqi qiymət verilməsi, cinayətkarların qanun qarşısında məsuliyyətə cəlb edilməsi və qurbanların tapdanmış hüquqlarının tam bərpası əsasında mümkündür.

# Azərbaycan-Türkiyə birliyi: sarsılmaz regional güc...






Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. "Bir millət, iki dövlət" prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.

**İki qardaş ölkə hər zaman bir-birinin yanındadır**

Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki dövlət Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı bir-birinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi bu münasibətlərin nə qədər dərin və sarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

Hazırda dünyada, o cümlədən regionumuzda mürəkkəb proseslər davam edir. Yeni dünya nizamının formalaşdığı bir zamanda Azərbaycan xarici siyasət kursunda dost və müttəfiq ölkələrlə əlaqələri daha da gücləndirməkdədir. Təbii ki, bu sırada qardaş və strateji müttəfiq olan Türkiyə ilə münasibətlər xüsusi yer tutur.

**XİN başçıları nələri müzakirə ediblər?**

Regionun gücü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər, daima müzakirələr aparırlar. İyunun 27-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub. Telefon danışığı zamanı Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, iki ölkə arasında mövcud olan strateji əməkdaşlığın gündəliyi, habelə beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və əlaqələndirmə məsələləri müzakirə olunub.

Nazirlər qardaş ölkələr arasında yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı dəstəyin ikitərəfli münasibətlərin əsasını təşkil etdiyini vurğulayaraq, qarşılıqlı maraq doğuran bütün istiqamətlər üzrə sıx əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyətini qeyd ediblər. Telefon danışığı zamanı, həmçinin regionda mövcud təhlükəsizlik vəziyyəti, postmünaqişə dövründə gedən proseslər, regional sülh və sabitliyin təmin olunması istiqamətində atılan addımlar ətrafında fikir mübadiləsi aparılıb.

**Şuşa Bəyannaməsi münasibətlərimizin zirvəsini təşkil edir**

Qeyd edək ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, daha sonra Cənub Qaz Dəhlizi Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib. Bununla yanaşı, hərbi sahədə dətərəfdaşlıq möhkəm təməl üzərində qurulub. Türkiyə Azərbaycanın müdafiə potensialının artırılması üçün hərbi təlimlər və texniki dəstək verərək, hərbi əməkdaşlığı daha yüksək səviyyəyə çatdırıb. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib. 2021-ci ilin iyun ayında liderlər tərəfindən imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir.

**Beynəlxalq müstəvidə qarşılıqlı dəstək**

Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə, regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarımızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. İki dövlət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq edərək, regional və qlobal təhlükəsizlik təşəbbüslərində birgə mövqe sərgiləyir. Xüsusilə Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin göstərdiyi birmənalı siyasi dəstək bu əlaqələrin sarsılmazlığını və qardaşlığın gücünü bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın gücləndirilməsinə və regional təhlükəsizliyin təmininə mühüm töhfə verir. Bu təlimlər yalnız ikitərəfli səviyyədə deyil, həm də NATO ilə əməkdaşlıq çərçivəsində aparılan işlərin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

**Ankara sülh prosesini dəstəkləyir**

Bundan əlavə, müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, eyni zamanda, Cənubi Qafqaz və Orta Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasındamühüm rol oynayır.

Yeri gəlmişkən, Hakan Fidan bu yaxınlarda Azərbaycanla Ermənistan arasında sülh prosesində rəsmi Ankaranın dəstəyini bir daha bəyan edib. "Azərbaycan ilə Ermənistan arasında sülh prosesini dəstəkləyirik. Azərbaycanın qanuni narahatlıqlarının aradan qaldırılmasını və sülh sazişinin gecikdirilmədən imzalanmasını da arzulayırıq. Ermənistanla apardığımız normallaşma prosesi də Azərbaycanla sıx koordinasiya şəraitində davam edir",-deyə o, vurğulayıb.

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə mövcud gərginlik, xüsusilə İran ətrafında yaranmış vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, iki ölkənin XİN başçılarının telefon danışığında aparılan müzakirələr böyük əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# Yeni su layihələri aqrar sektorun inkişafına güclü təkan verəcək

Azərbaycan yeni strateji mərhələdə geniş potensiala malik aqrar sektorda davamlı inkişafı təmin etməyi və məhsuldarlığı artırmağı hədəfləyib. Bir qədər bundan əvvəl təsdiqlənən "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkədə dayanıqlı və yüksək dəyər yaradan aqrar sektorun formalaşdırılmasını nəzərdə tutur. Dövlət Proqramının fəlsəfəsinə əsasən məqsəd yalnız əkin sahələrinin genişləndirilməsi deyil, mövcud torpaq ehtiyatlarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox və daha keyfiyyətli məhsul əldə edilməsidir.

Bütövlükdə proqram 5 məqsədi, 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Son nəticədə qarşıya qoyulan məqsədlərə çatılması ölkədə regional inkişafın təmin edilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yeni ixrac imkanları yaradılmasına, ən əsası isə indiki qlobal çağırışlar fonunda aktuallığı heç vaxt olmadığı qədər artan və milli təhlükəsizliyin mühüm tərkib hissəsinə çevrilən özünütəminat səviyyəsinin yüksəldilməsinə mühüm töhfə olacaq.

**Məhdud su ehtiyatlarından daha səmərəli istifadə olunmalıdır**

Aqrar sektorda yüksək məhsuldarlığın təmin edilməsi bir sıra şərtlərdən asılıdır ki, burada su təminatı ən mühüm amillərdən biridir. Məsələnin aktuallığı həm də onunla bağlıdır ki, Azərbaycan məhdud su ehtiyatlarına malik ölkələr sırasında yer alır. Respublika üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır. Qonşu ölkələrdən, xüsusilə də Ermənistan ərazisindən daxil olan suların mütəmadi olaraq çirkləndirilməsi də çox ciddi problemdir. Eyni zamanda, qlobal iqlim dəyişmələri də çaylarda sululuğun həcminin əhəmiyyətli dərəcədə dıyişməsinə öz təsirini göstərir.

Digər bir vacib faktor isə Azərbaycanın davamlı inkişafı ilə bağlıdır. 2004-cü ildən başlayaraq Azərbaycanda ardıcıl olaraq regional inkişaf proqramları qəbul edilib. Həmin proqramların icrası çərçivəsində bölgələrimiz də iqtisadi güc mərkəzlərinə çevrilib, regionlarda iri təsərrüfatlar yaradılıb və beləliklə də, suvarma və içməli su təchizatı üzrə şəbəkələr genişləndirilib. Bütün bunların nəticəsi olaraq suya tələbat artıb. Bu kimi reallıqlar nəzərə alınmaqla son 22 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilib. Dövlət investisiya qoyuluşu hesabına həyata keçirilən belə layihələrin statistikası kifayət qədər zəngindir. Bəhs olunan dövrdə "Taxtakörpü", "Şəmkirçay", "Tovuzçay", "Göytəpə", Naxçıvanda "Heydər Əliyev", "Vayxır" su anbarlarının, Oğuz-Qəbələ-Bakı su kəmərinin inşası, Samur-Abşeron su kəmərinin yenidən qurulması və əksər







şəhər və rayon mərkəzlərinin içməli su və kanalizasiya xidmətləri ilə təchiz edilməsi respublikamızın su təhlükəsizliyini əhəmiyyətli dərəcədə möhkəmləndirib.

**Salyan-Şirvan iqtisadi rayonunda su infrastrukturu yenilənir**

Ötən dövrdə görülən işlərin davamı olaraq hazırda da ölkə üzrə aqrar sektorun etibarlı su təminatı üçün sistemli tədbirlər həyata keçirilir. "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində keçirilən Şirvan-Salyan iqtisadi rayonu üzrə regional müşavirədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədr müavini Xəyyam Məmmədov bu barədə məlumat verərək bildirib ki, təmsil etdiyi qurum tərəfindən Su Ehtiyatlarından Səmərəli İstifadəyə dair Milli Strategiya, ölkənin 2022-2026-cı illəri əhatə edən Sosial-İqtisadi İnkişaf Strategiyası, "Böyük Qayıdış" proqramı və yenicə təsdiqlənmiş 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramı çərçivəsində respublika miqyasında sistemli tədbirlər həyata keçirilir. "Fəaliyyətimizin əsas məqsədi suvarma infrastrukturunun yenidən qurulması, su itkilərinin minimuma endirilməsi və fermerlərin etibarlı su təminatı ilə təmin olunmasıdır. Yeni Dövlət Proqramının əsas xəttini ekstensiv yanaşmadan yüksək əlavə dəyər yaradan intensiv üsullara keçid təşkil edir. Su resurslarının səmərəli idarə olunması təkcə ekoloji məsələ deyil, həm də milli təhlükəsizlik və ərzaq müstəqilliyi baxımından strateji prioritetdir", - deyə X.Məmmədov vurğulayıb.

Qeyd edək ki, Şirvan-Salyan iqtisadi rayonu ölkənin aqrar istehsal sistemində mühüm mövqeyə malikdir. Əhalinin sıx məskunlaşdığı bu ərazi pambıqçılıq, taxılçılıq, bostançılıq, heyvandarlıq, quşçuluq və balıqçılıq sahələri üzrə ölkənin əsas istehsal mərkəzləri sırasında yer alır. Bu potensialın tam reallaşması isə birbaşa etibarlı və davamlı su təminatından asılıdır.

Lakin son illər iqlim dəyişikliklərinin təsiri nəticəsində orta illik temperaturun yüksəlməsi, quraqlıq dövrlərinin uzanması, yağıntıların qeyri-bərabər paylanması və su ehtiyatlarına artan təzyiq bu sahədə yeni çağırışlar formalaşdırıb. Buna görə də bütün ölkə üzrə olduğu kimi, Şirvan-Salyan iqtisadi rayonunda da su təminatının yaxşılaşdırılması xidmət edən yeni layihələr reallaşdırılır.

Verilən məlumatlara görə, bəhs olunan iqtisadi rayonda fəaliyyət göstərən su təsərrüfatı infrastrukturu ümumilikdə 4 700 kilometrə yaxın suvarma şəbəkəsini, 4 892 hidrotexniki qurğunu, 5 subartezian quyusunu və 202 nasos stansiyasını əhatə edir. Cari ildə region üzrə təxminən 46 min kənd təsərrüfatı istehsalçısı suvarma və digər məqsədlər üçün su ilə təmin olunub.

**Su kanallarında görülən işlər nəticəsində dövriyyəyə yeni torpaqlar cəlb olunacaq**

İnfrastrukturun dayanıqlılığının artırılması məqsədilə reallaşdırılan layihələrin bir qismi daşıyıcı su kanallarını əhatə edir. Məsələn, müşavirədə bildirildiyi kimi, Şirvan Suvarma Kanalı 105,9 min hektar yeni torpaq sahəsini dövriyyəyə cəlb edəcək. X.Məmmədovun sözlərinə görə, kanalın tikintisi çərçivəsində uzunluğu 204,3 kilometr, suötürmə qabiliyyəti saniyədə 180 kubmetr yeni magistral suvarma infrastrukturu istifadəyə veriləcək. "Layihənin icrası nəticəsində Hacıqabul rayonu da daxil olmaqla 9 rayonda 112,3 min hektar mövcud əkin sahəsinin su təminatı yaxşılaşacaq. Bununla yanaşı, 105,9 min hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə cəlb ediləcək. Beləliklə, ümumilikdə 228 min hektardan artıq ərazi layihədən faydalanacaq. Layihənin 2027-ci ildə başa çatdırılması nəzərdə tutulur. Bu təşəbbüs Şirvan zonasının sosial-iqtisadi inkişafına, kənd təsərrüfatı istehsalının genişlənməsinə və regionun su təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verəcək", - deyə sədr müavini vurğulayıb.

Eyni zamanda, Qarabağ Suvarma Kanalının yenidən qurulması da regionda su təminatını gücləndirəcək. Belə ki, layihənin icrası nəticəsində uzunluğu 172,4 kilometr, suburaxma qabiliyyəti saniyədə 135 kubmetr olan bu su təsərrüfatı infrastrukturu Qarabağ və ətraf rayonların su təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Kanal eyni zamanda Araz çayı üzərində yerləşən Bəhrəmtəpə hidroqovşağının əlavə su ilə qidalanmasına şərait yaradacaq. Nəticədə, Mərkəzi Aran və Şirvan-Salyan iqtisadi rayonlarında əkin sahələrinin su təminatı güclənəcək, kənd təsərrüfatı istehsalının dayanıqlığı və məhsuldarlığı artacaq.

Bundan başqa, X.Məmmədovun sözlərinə görə, Bərgüşadçay Su Anbarının tikintisi də region üçün strateji əhəmiyyət daşıyan iri infrastruktur layihələrindən biridir. Fikirlərinə davam edən sədr müavini vurğulayıb: "Yeni yaradılacaq su mənbəyi Beyləqan, İmişli, Saatlı, Sabirabad, Cəlilabad və Masallı rayonlarının dayanıqlı su təchizatını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq".

**Mil-Muğan regionunda yeni suvarma layihələri icra olunacaq**

"Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində həmçinin Mil-Muğan iqtisadi rayonu üzrə regional müşavirə keçirilib. Tədbirdə bu iqrisadi rayon üzrə həyata keçiriləcək su layihələri barədə məlumat verilib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin sədri Zakir Quliyev müşavirədə bildirib ki, region üzrə su təminatının yaxşılaşdırılması məqsədilə müvafiq olaraq Sabir, Baş Muğan və Köhnə Xanqızı kanallarının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanıb, ekspertiza rəyləri alınıb və tender prosesləri həyata keçirilərək tikinti-quraşdırma işlərinə başlanılması nəzərdə tutulur. "Eyni zamanda Rəsularx kanalının yenidənqurulması üzrə hazırlıq işləri başa çatdırılıb və növbəti ildə layihənin icrasına başlanılması planlaşdırılır. Həmçinin Aşağı Muğan kanalının yenidənqurulması işlərinə başlanılıb", - deyə qurum rəsmisi vurğulayıb.

Z.Quliyev əlavə edib ki, Azərbaycanda müasir suvarma sistemləri hələ də əkin sahələrinin cəmi 10 faizini əhatə edir. Bu, aşağı göstəricidir. Qarşıya qoyulan məqsəd isə innovativ suvarma infrastrukturu ilə əhatə olunan əkin sahələrini artırmaqdır. Onun sözlərinə görə, 2025-ci ildə istismar tədbirləri hesabına su təsərrüfatı obyektlərində aparılmış əsaslı təmir işləri çərçivəsində ölkə üzrə 55 kilometrdən artıq kanal beton üzlüyə alınıb, 10,4 kilometrdən çox boru kəməri yenilənib, 2 813 metr daş-beton bənd və 204 subartezian quyusu təmir olunub.

**Aqrar sektorda rəqəmsal monitorinq və su uçotu genişləndiriləcək**

Su ehtiyatlarından səmərəli istifadə olunmasında müasir suvarma texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Damcılı, yağışyağdırma və pivot suvarma sistemləri ənənəvi suvarma üsulları ilə müqayisədə su sərfiyyatını əhəmiyyətli dərəcədə azaldır, məhsuldarlığı artırır və istehsal gəlirlərinin optimallaşdırılmasına imkan yaradır. Yeni Dövlət Proqramında da bu istiqamət prioritet sahə kimi müəyyən edilib. Proqram çərçivəsində müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, su istifadəçilərinin maarifləndirilməsi, rəqəmsal monitoring sistemlərinin qurulması və su uçotunun təkmilləşdirilməsi nəzərdə tutulur.

Verilən məlumatlara görə, hazırda Mil-Muğan bölgəsində 77,5 min istehsalçı suvarma suyu ilə təmin olunur. Agentliyin xidmət göstərdiyi ərazilərdə Beyləqan rayonunda 51 min 356 hektar, İmişli rayonunda 58 714 hektar, Saatlı rayonunda 59 124 hektar və Sabirabad rayonunda 71 240 hektar suvarılan sahə mövcuddur. Bu sahələrin su təminatının həyata keçirilməsi məqsədilə ümumilikdə 6 704 km suvarma şəbəkəsi, 213 nasos stansiyası, 100-dən artıq subartezian quyusu, 19 500 hidrotexniki qurğu və digər infrastruktur obyektləri istismar olunur. Ötən il həmin ərazilərin suvarma suyu ilə təmin edilməsi üçün mənbələrdən 2 milyard 26 milyon kubmetr su götürülüb, bunun 1 milyard 427 milyon kubmetri təsərrüfatlara verilib. Bu rayonlar üzrə təxminən 77,5 min kənd təsərrüfatı istehsalçısı suvarma və digər məqsədlər üçün su ilə təmin olunub.

*Mübariz ABDULLAYEV*

# Qeydiyyatsız evlərin sənədləşməsində yenilik

## Bütün daşınmaz əmlak və torpaq sahələri vahid elektron sistemdə birləşdiriləcək

Qeydiyyatsız evlərin sənədləşməsində mühüm yenilik gözlənilir. Torpaq Məcəlləsinə təklif edilən yeni dəyişikliklərə əsasən, Azərbaycanda bütün daşınmaz əmlaklar, o cümlədən torpaq sahələri mülkiyyət növündən asılı olmayaraq vahid elektron sistemdə birləşdiriləcək. Dövlət kadastrı müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə tam elektron qaydada aparılacaq. Artıq dövlət kadastrına məlumatların daxil ediləcəyi konkret hallar və müddətlər də müəyyənləşib. Bura ilkin qeydiyyat müraciətləri, sənədlərin dəyişməsi və dövlət sifarişləri daxildir.

Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun sözlərinə görə, yeni sistem illərdir həllini gözləyən sənədsiz evlər probleminin tənzimlənməsinə hüquqi zəmin yarada bilər. Belə ki, indiyə qədər kadastr uçotunun tam aparılmaması səbəbindən xeyli sayda pay torpaqları qanunsuz olaraq həyətyanı sahə kimi satılıb. Yeni qanun layihəsi bu cür neqativ halların qarşısını tamamilə alacaq. Lakin, indiyədək reallaşan faktiki qeyri-rəsmi satışların leqallaşdırılması üçün xüsusi addımların atılmasına ehtiyac var.

### Yeniliklər sənədsiz evlər düyününü yenə çözə bilməyəcək

Bəs yeni dəqiqiliklər müxtəlif ərazilərdə, o cümlədən pay və bələdiyyə torpağında inşa edilmiş sənədsiz evlərin mülkiyyət hüququnun tanınmasını həll edə biləcəkmi?

Ekspertlər bu məsələnin çözülməsini kifayət qədər mürəkkəb hesab edir və bunun üşün bir sıra qanunlarda dəyişikliklərin edilməsini vacib hesab edirlər. Bu sahədə ən uyğun addım kimi sənədsiz evlərin qanuni mülkiyyət hüququnun təmin edilməsinə imkan verə biləcək “əmlak amnistisiyası”nın tətbiqi məqsədəuyğun sayılır. İndiyə qədər bununla bağlı çoxsaylı təşəbbüslər olsa da, müvafiq qurumların mütəxəssislərin iştirakı ilə qiymətləndirmələr aparılsa da, konkret nəticə əldə edilməyib. Amnistiyanın bütün sənədsiz evlərə şamil olunmasında fərqli fikirlər meydana çıxıb və yalnız müəyyən qisim əmlakın amnistiyaya düşməsini təklif edir. Bu isə əmlak məsələlərində problemlərin yenə də düyünə düşməsi deməkdir.

Qeyd edək ki, 2 ildir Əmlak Məsələləri Dövlət Xidməti daşınmaz əmlakın qeydiyyatının rəsmiləşdirilməsini təmin edən elektron portalı istifadəyə verilib və portalda ancaq müvafiq rəy və icazə əsasında sənədləri qaydasında olan evlərin və mənzillərin portal üzərindən rəsmiləşdirilməsi, yəni mülkiyyət hüququna dair çıxarışın (kupça) alınması mümkündür.Tələblərə cavab verməyən digər evlərin isə rəsmiləşdirilməsi mümkün deyil. Bu isə amnistiya tətbiq olunduğu halda həmin evlər üçün ciddi çətinliklər yaradacaq.

Xidmət insan sağlamlığı və fəaliyyətinə təhlükə törədən ərazilərdə tikilmiş mənzilləri portal üzərindən rəsmiləşdirmədiyindən onlar tələblərə cavab verməyən əmlak hesab edilir. Həmin evlər mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edildiyindən riskli hesab olunur. Onların bir qismi sovet dövründə, qalanı isə müstəqilliyin ilk illərində inşa edilib və əksəriyyətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən müəyyənedici aktı yoxdur. Müvafiq icra hakimiyyəti orqanlarının təqdim etdiyi əsaslı hüquqi sənədlər olmadığı üçün evlərə mülkiyyət hüququna dair çıxarışın verilməsi də hüquqi addımlar atmağa mane olur.



### Hökumətin əmlak amnistiyası tapşırığı

Ancaq hökumət müvafiq qurumlara qeyd edilən sahədə mövcud problemlərə baxmayaraq, müəyyən güzəştlərin tətbiqini tövsiyə edib və əmlak amnistiyası layihəsi hazırlanmasını tapşırıb. Sənədsiz evlərlə bağlı 2018-2019-cu illərdə bütün mənzil-kommunal təsərrüfatı birlikləri və bələdiyyələr tərəfindən uçot işi aparılıb və zəruri məlumatlar rayon icra hakimiyyətlərinə təqdim olunub. Bu, həmin evlərin sənədləşdirilməsi istiqamətində mərkəzləşdirilmiş şəkildə müvafiq dəqiqləşdirmələrin aparılması və uçot məlumatlarının toplanması baxımından mühüm addım hesab edilir. Bununla da ən yüksək dövlət orqanlarının birgə koordinasiyası sayəsində sənədsiz evlərin qeydiyyatının aparılmasına başlanılıb.

Qiymətləndirmələrdən sonra Milli Məclisdə Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər edilib və yeni dəyişikliklər sənədsiz evlərin mülkiyyət hüququnun tanınması üçün bir sıra istisnaları nəzərdə tutur. Belə ki, 2023-cü il martın 1-dək inşa edilmiş, lakin etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğuna dair rəyi təqdim edən sahələrin çıxarışla təmin edilməsinə icazə verilir. Əvvəllər hansı ildə inşa edilməsindən asılı olmayaraq tikintisi sözügedən Məcəllənin tələblərinə uyğun aparılmayan, amma etibarlılığı və təhlükəsizliyi olan bütün qeyri-yaşayış sahələrinin istismarına icazə verilməsi nəzərdə tutulur. Ancaq insan sağlamlığı və fəaliyyətinə təhlükə törədən sahələrdə inşa edilmiş mənzillər üçün güzəştlərin tətbiqi istisnalıq təşkil edir. Həmin evlər kommunikasiya xətlərinin mühafizə zolağında inşa olunub, tikinti normativlərinin tələblərinə cavab vermədiyindən müvafiq icra orqanları ərazinin mühəndis-kommunikasiya zonalarının mürəkkəbliyini, elektrik xətti, qaz, su, kanalizasiya, digər kommunikasiya qurğularının yaşayış təhlükəliliyini nəzərə alaraq müəyyənedici aktın tərtib edilməsini qeyri-mümkün sayır. Bu baxımdan həmin evlərin sənədləşməsi qanunvericiliyin yumşaldılan və güzəşt tələblərinə də uyğun gəlmir. Bu tikililərin, ümumiyyətlə, sıfırdan heç bir sənədinin olmamasıdır, onların böyük bir qisminin heç ünvanı yoxdur, bir qismi isə SOCAR-ın, neftçıxarma trestlərinin, digər dövlət orqanlarının ərazisində yerləşir ki, buranın mühəndis qurğuları və planı tikintinin tanınmasına yol vermir.



### 400 min evin sənədləşməsi mümkün olsa da...

Qeyd edək ki, dövlət başçısının 2015-ci ildə imzaladığı müvafiq fərmana əsasən, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanuna dəyişikliklər edilib və daşınmaz əmlak üzərində hüquqların əldə edilməsi asanlaşıb. Amnistiya xarakteri daşıyan bu fərman əvvəllər hüquq müəyyənedici sənəd kimi tanınmayan bəzi sənədlərin rəsmi qeydiyyat üçün əsas kimi qəbul edilməsini təsbit edib. Bununla da, vətəndaşlara əmlaklarını leqallaşdırmaq üçün əsaslı imkanlar yaranıb. Nəticədə on minlərlə əmlakın rəsmi qeydiyyata alınması təmin olunub. Dövlət arxivlərində mövcud olan sənədlər, habelə, əvvəlki inventar bürolar və digər müvafiq qurumlar tərəfindən verilmiş sənədlər nəzərə alınmaqla, əmlakın leqallaşdırılması elektronlaşdırılıb. Ancaq hazırda 800 mindən çox evin sənədləşdirilməsi həll edilməmiş qalır ki, bunun da səbəbi yuxarıda vurğuladığımız kimi həmin evlərin etibarlılıq və təhlükəsizlik tələblərinə uyğun olmamasıdır.

Dünya Bankı (DB) Qrupunun “Business Ready” hesabatının 2025-ci il üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərdən biri daşınmaz əmlak sektorunda yeni hüquqi mexanizmlərin hazırlanmasıdır. Tövsiyəyə əsasən, sənədsiz tikintilərlə bağlı vəziyyətin tənzimlənməsi və əmlaka aid çıxarışların verilməsi təmin olunmalıdır. DB-nin müəyyən etdiyi öhdəliklərə əsasən, Azərbaycanın müvafiq dövlət qurumu qeyd edilən məsələ ilə bağlı normativ hüquqi akt layihəsi və əlaqəli sənədləri hazırlayaraq aidiyyəti üzrə təqdim etməlidir.

Bu prosesdə iştirak edən Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, ticarət qeydiyyatı ilə bağlı dövlət qurumları, həmçinin ictimai fəallar və sahibkarlar birgə fəaliyyət çərçivəsində hüquqi akt layihəsinin hazırlanmasını yekunlaşdırmaqdadır. Layihə çərçivəsində daşınmaz əmlakın qeydiyyatı, biznes fəaliyyəti üçün icazələrin verilməsi, fərdi və hüquqi şəxslərin həyata keçirdiyi fəaliyyətlərin dövlət tərəfindən tənzimlənməsi kimi bir çox istiqamətlər nəzərdə tutulur.

*E.CƏFƏRLİ*



# Paris yeni reallıqları qəbul etməkdə çətinlik çəkir?

## Fransa Cənubi Qafqazla bağlı siyasətində dəyişiklik etməlidir

Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Rəsmi Paris “ermənilərdən çox ermənilik” edərək hər fürsətdə ölkəmizlə bağlı qərəz və böhtan dolu mövqe sərgiləyir. İyunun 23-də Fransa Milli Assambleyasının üzvlərinin ünvanladıqları suallara cavab olaraq, “Dağlıq Qarabağdan köçürülmüş” ermənilərə dəstək, “erməni məhbuslarının taleyi və onların azad edilməsi”, “erməni dini və mədəni irsi,” “Azərbaycan-Ermənistan sülh prosesində insan hüquqları”, habelə “Azərbaycanda insan hüquqları” kimi məsələlərə dair Avropa və Xarici İşlər Nazirliyinin iyunun 23-də Parlamentin internet səhifəsində dərc edilmiş əsassız cavabları da bunun növbəti göstəricisidir.

**İşğalçı ölkənin dostu...**

Özünü “demokratiyanın beşiyi” kimi təqdim edən, 30 ilə yaxın ATƏT-in keçmiş Minsk qrupunun həmsədri olmuş bu ölkənin təcavüzkar Ermənistanı dost və müttəfiq hesab etməsi, Ermənistana dəstək göstərməsi ilk növbədə Fransanın özünə zərbədir. Məlumdur ki, həmsədr ölkə kimi Fransa heç vaxt ədalətli mövqe tutmamışdı. Bütün dünya şahiddir ki, Ermənistan 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında hansı vandalizmi törədib. Amma Fransa bir dəfə də olsun Ermənistanı işğalçı siyasətə son qoymağa çağırmayıb, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini tələb etməyib. Əksinə, Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etməklə Təhlükəsizlik Şurasının qətnamələrini icra edərkən Fransa açıq-aşkar Ermənistana dəstək verib. Demək olar ki, bu dövrdə Fransa gerçək simasını nümayiş etdirdi. İndiki şəraitdə də Fransanın bu mövqeyi, XİN-in mövqeyi regionumuzda sülh prosesinə ziyan vurur. Eyni zamanda, beynəlxalq hüquqa hörmətsizliyin nümayişi olan bu sənədi qəbul etməklə Fransa gerçək simasını nümayiş etdirir.

**Fransa müstəmləkəçi keçmişini unutmamalıdır**

30 il ərzində Ermənistanın işğalçı siyasətinin nəticələrinə biganə qalan Fransanın indi öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan haqqında əsassız olaraq dezinformasiya yayması qəbulolunmazdır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Parisin mütəmadi olaraq reallığı təhrif etmək üçün cəhdləri təəssüf doğurur.

Fransa Cənubi Qafqaz ölkələrinin daxili işlərinə qarışmaq əvəzinə, təkcə Azərbaycan deyil, müxtəlif dövlətlər tərəfindən böyük tənqidlərə məruz qalan, xüsusən də dənizaşırı ərazilərində və Afrikada həyata keçirdiyi neokolonial siyasətindən əl çəkməli, sülhə xidmət etməyən və regionda sabitliyə xələl gətirən addımlara son qoymalıdır.

**XİN: Bu cür addımlar revanşist meyilləri təşviq edir**

Yeri gəlmişkən, Azərbaycanın Xarici İşlər Nazirliyi Fransa Avropa və Xarici İşlər Nazirliyinin Parlamentin internet səhifəsində dərc edilmiş əsassız cavablarını qətiyyətlə pisləyərək rədd edib. Bildirilib ki, Fransa tərəfinin cavabları onun Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı uzun müddətdir nümayiş etdirdiyi qərəzli yanaşmanın növbəti nümunəsidir: “Cavablarda Ermənistanın təhlükəsizliyi, “Dağlıq Qarabağdan olan ermənilər”, “Azərbaycanda saxlanılan erməniəsilli şəxslər” kimi məsələlərə geniş yer ayrılsa da, Ermənistanın Azərbaycan ərazilərinin təxminən 30 il davam etmiş işğalı, bu müddətdə törədilmiş dağıntılar, bir milyondan artıq azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi, itkin düşmüş şəxslərin taleyi və Ermənistanın mina təhdidi kimi məsələlərə toxunulmaması təəssüf doğurur. Fransa tərəfinin özünü sülh prosesinin tərəfdarı kimi təqdim etməsinə baxmayaraq, Ermənistanla müdafiə əməkdaşlığını xüsusi vurğulaması və EUMA missiyasının fəaliyyətini təşviq etməsi Fransanın regionda neytrallıqdan tamamilə uzaq olduğunu bir daha göstərir. Fransanın Ermənistanla hərbi əməkdaşlığı genişləndirməsi, onu silahlandırması və regionda birtərəfli siyasi mövqe sərgiləməsi sülhə xidmət etmir. Əksinə, bu cür addımlar revanşist meyilləri təşviq edir və normallaşma prosesinə zərbə vurur”.

Qeyd edilib ki, “Erməni əsirləri və saxlanılan şəxslər” barədə səsləndirilən iddialar reallıqlara tamamilə ziddir. Bu məsələnin siyasi manipulyasiya predmetinə çevrilməsi və məhkəmənin qərarının sual altına alınması cəhdləri qəbuledilməzdir. Azərbaycanda saxlanılan erməniəsilli şəxslər milli qanunvericiliyə və beynəlxalq hüquqa uyğun olaraq konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb ediliblər. Ermənistanla yanaşı, Fransanın da 30 ilə yaxın müddətdə qayğısına qaldığı separatçı liderlər və digər erməniəsilli şəxslər müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərə görə məhkum ediliblər və cəzalarını çəkirlər.

**Fransanın “erməni mədəni və dini irsi” ilə bağlı iddiaları gülüncdür**

Ermənistanda və keçmiş işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinin məhv edilməsi, məscidlərin dağıdılması və vandalizmə məruz qalması faktlarını görməməzliyə vuran Fransa tərəfinin “erməni mədəni və dini irsi” ilə bağlı iddiaları şərh etməsi gülüncdür.

Qeyd edilənlərlə yanaşı, siyasətçilərin çoxsaylı korrupsiya faktları, polis zorakılığı, etirazçıların sərt şəkildə dağıdılması, jurnalistlərə qarşı təzyiqlər, miqrantların hüquqlarının pozulması və dini ayrı-seçkiliklə bağlı çoxsaylı nümunələrlə, həmçinin Fransanın dənizaşırı ərazilərində, o cümlədən Yeni Kaledoniyada baş verən zorakılıqlarla yadda qalan Fransanın Azərbaycana insan hüquqları ilə bağlı dərs verməyə çalışması təəccüb doğurur.

*Nardar BAYRAMLI*

# Bu dəfə Dohada...

## ABŞ ilə İran texniki görüşlərə başlayır

ABŞ ilə İran arasında 60 günlük atəşkəs razılaşması imzalansa da, ötən həftənin sonunda Yaxın Şərqdə yenidən silahlar hərəkətə gəlib. Qeyd edək ki, ABŞ İranın Hörmüz boğazından keçən bir tankerə dörd dron atdığını bəyan edərək yenidən İrana qarşı bir neçə hücum təşkil edib. Prezident Donald Tramp Tehranı atəşkəsi pozmaqda günahlandırıb. Amerika lideri "ABŞ tammiqyaslı hərbi əməliyyatlara başlasa, İranın mövcudluğuna son qoyula biləcəyini" irəli sürüb. "Artıq ağlabatan ola bilməyəcəyimiz və başladığımız işi hərbi yolla bitirməyə məcbur olacağımız bir nöqtə gələ bilər", - deyə o, rəsmi Tehrana mesaj verib.

Bunun qarşılığında isə İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) ABŞ hücumlarına cavab olaraq Küveytdəki ABŞ-ın rəhbərlik etdiyi Əli əl-Salem hava bazasına və Bəhreynin Port Salman şəhərindəki Hərbi Dəniz Qüvvələrinin Beşinci Donanmasının bazasına hücum etdiyini bildirib.

**İsveçrədən Qətərə...**

Bununla belə yenidən atəşkəsin bərqərar olması istiqamətində addımlar atılmaqdadır. Belə ki, "Axios" ABŞ-ın yüksək vəzifəli rəsmisinə istinadən xəbər verir ki, ABŞ və İran hücumları dayandırmaq barədə razılığa gəliblər və Hörmüz boğazı ilə bağlı mübahisəni həll etmək üçün 30 iyun çərşənbə axşamı günü Qətərin paytaxtı Dohada görüşməyi planlaşdırırlar. Mənbə bildirib ki, "Bütün hərəkətləri dayandırmaq qərarına gəldik".

Mənbənin sözlərinə görə, İranın nüvə proqramı ilə bağlı danışıqların əvvəlcə həmin gün İsveçrədə keçirilməsi planlaşdırılırdı, lakin gərginliyin artması səbəbindən yer dəyişdirilib və gündəm boğaz ətrafındakı vəziyyətin həllinə fokuslanıb. Nəşrin mənbələri bildirib ki, Amerika texniki qrupunun rəhbəri Nik Stüartın danışıqlarda iştirakı gözlənilir.

Amerika mediasının ABŞ administrasiyasının rəsmilərinə istinadən verdiyi məlumata görə, görüşdə gərginliyin azaldılması və gəmi təhlükəsizliyi ilə bağlı əvvəllər əldə edilmiş razılaşmanın qorunması nəzərdə tutulur.

Xatırladaq ki, 17 iyunda imzalanmış və münaqişəyə son qoymaq məqsədi daşıyan müvəqqəti "anlaşma memorandumu"na əsasən Tehran Hörmüz boğazından kommersiya gəmilərinin təhlükəsiz keçidini təmin etməyi öhdəsinə götürüb və qarşılığında Vaşinqton İran limanlarının blokadasını ləğv etməyə razılaşıb.

**Konqresdən 672 milyon dollar istənildi...**

Vurğulandığı kimi, görüşdə Dövlət Departamentinin keçmiş lobbiçisi və ABŞ texniki qrupunun rəhbəri Nik Stüartın da iştirak edəcəyi gözlənilir. Daha əvvəl ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Mayk Valts ABŞ-İran danışıqlarının texniki səviyyədə davam etdiyini bildirmişdi.



O, tərəflərin beynəlxalq müfəttişlərə çıxış, uran zənginləşdirilməsinin azaldılması və "İranın heç vaxt nüvə silahı əldə etməməsini təmin etmək" məqsədi daşıyan digər aspektlərin müzakirə mövzusu olduğunu söyləmişdi. Fox News-un Ağ Evdəki mənbəyə istinadən verdiyi məlumata görə, ABŞ administrasiyası İranın nüvə silahı hazırlamaq və ya əldə etmək qabiliyyətini "tamamilə və təsdiqlənə bilən şəkildə aradan qaldırmaq" üçün tədbirlər üçün Konqresdən 672 milyon dollar istəyib. Maliyyələşdirmə uran heksaflüoridi, müxtəlif formalarda uran və tədqiqat reaktoru yanacağı da daxil olmaqla İran nüvə materiallarının çıxarılması və utilizasiyasını, eləcə də ABŞ-ın İrandakı yoxlamalarını, Beynəlxalq Atom Enerjisi Agentliyinin (IAEA) yoxlamalarına dəstək, nüvə qaçaqmalçılığı ilə mübarizə və Yaxın Şərqdə Nüvə Təcili Yardım Qrupu əməliyyatlarının genişləndirilməsini əhatə etmək üçün nəzərdə tutulub. Ağ Evin İdarəetmə və Büdcə Ofisinin direktoru Rassel Vought-un Nümayəndələr Palatasının spikeri Mayk Consona ünvanladığı məktubda bildirilir ki, bu vəsaitlər ABŞ Milli Nüvə Təhlükəsizliyi Administrasiyası (NNSA) üçün nüvə silahının yayılmaması proqramları üçün tələb olunur. Maliyyələşdirmə İran nüvə proqramı ilə əlaqəli yayılmaya həssas materialların, texnologiyaların, avadanlıqların və infrastrukturun utilizasiyasını dəstəkləmək üçün nəzərdə tutulub. Ümumilikdə, administrasiya Konqresdən əlavə 87,6 milyard dollar maliyyələşdirmə istəyib. Məktubda qeyd olunub ki, sorğunun əksəriyyəti "Epik Qəzəb" əməliyyatı ilə bağlıdır. ABŞ Energetika Nazirliyindən nüvə və enerji təhlükəsizliyi, əsasən bu əməliyyatla bağlı NNSA fəaliyyətləri üçün ayrıca 768 milyon dollar tələb olunur.



**Minaların təmizlənməsi aylar çəkəcək...**

Bu arada media yazır ki, Hörmüz boğazından keçid hələ də təhlükəlidir. Boğazda dəniz nəqliyyatının müharibədən əvvəlki səviyyəyə qayıtması minaların təmizlənməsi zərurəti səbəbindən bir neçə ay çəkə bilər. Bu barədə "Financial Times" nəşrinin məlumatında qeyd olunub. Məlumata görə, Yaponiyanın "NYK Line" gəmiçilik şirkətinin rəhbəri Takaya Soqa nəşrə açıqlamasında bildirib ki, atəşkəsin qüvvədə olmasına baxmayaraq, bölgədə dəniz daşımalarının tam bərpası üçün uzun müddət tələb olunacaq.

Onun sözlərinə görə, hazırda gəmiçilik marşrutları ciddi şəkildə məhdudlaşıb və gəmilər yalnız İranın Larak adası yaxınlığından və Oman sahilləri boyunca hərəkət edə bilir. Bildirilir ki, Hörmüz boğazında 80-ə yaxın minanın qaldığı ehtimal olunur.

Şirkət rəhbəri əlavə edib ki, gəmilər boğaza sərbəst daxil olub-çıxa bilsələr belə, nəqliyyat həcmi bir müddət normal səviyyənin yarısından aşağı qalacaq.

**İran öhdəliklərinə sadiq qalacaq...**

İranın xarici işlər naziri Abbas Əraqçi isə bölgədə təhlükəsizliyin təmin olunması istiqamətində addımların atılmasının zəruriliyi haqda danışıb. O, Bağdadda keçirdiyi görüşlər zamanı bildirib ki, İran regionda təhlükəsizliyin təmin edilməsi məqsədilə Körfəz ölkələri ilə dialoqa və əməkdaşlığa hazır olduğunu bəyan edib. Nazirin sözlərinə görə, Tehran xarici hərbi müdaxilədən uzaq, qarşılıqlı etimad və konsensus prinsiplərinə əsaslanan kollektiv təhlükəsizlik mexanizminin yaradılmasını dəstəkləyir. Əraqçi, həmçinin qeyd edib ki, İran Hörmüz boğazı ilə bağlı öhdəliklərinə sadiq qalacaq, Oman və digər region ölkələri ilə əməkdaşlığı və dialoqu davam etdirəcək.

***P.İSMAYILOV***

# İRƏVAN ZİYALILARINDAN ƏLİ QƏMƏRLİNSKİ

Milləti millət edən xalqın tarixini yazan, zamanın, dövrün ən çətin sınaqlarında ona dayaq olan böyük şəxsiyyətlərdir. Qüdrətli nəsillərin yetişdirdiyi böyük şəxsiyyətlər həm də millətin çırağıdır. Millət bu çıraqların işığı ilə qaranlıqlardan adlayıb, aydınlığa çıxa bilib. Qüdrətli nəsillərin yetişdirdiyi o böyük şəxsiyyətlər kimisi qələmi ilə millətin gözünü açıb, kimisi sözü ilə maarifin çırağını yandırıb, milləti və yurdu yüksəldiblər. Neçə-neçə ziyalı nəsillərin nümayəndələri elmdə, təhsildə, dövlətçilikdə və bir çox sahədə əvəzsiz izlər qoymuş və gələcək nəsillərə nəfəs verməklə həm də örnək olmuşlar. Tariximizdə fəxr edilən, şərəfli nəsillər sırasında Qəmərlinskilərin də ayrıca yeri vardır.



Ümumiyyətlə, bu şəcərə haqqında hələ orta məktəbdə oxuduğum illərdə müəllimlərimdən eşitmişdim. Soyun zəngin tarixi vardır. Onu vərəqləmək fikrində deyiləm, sadəcə, böyük bir nəslin parlaq simalarından biri Əli Qəmərlinskinin ömür yolu, onun elmi, pedaqoji fəaliyyəti haqqında danışmaq istəyirəm.

Ömrünü elmə, təhsilə həsr etmiş Əli Məmmədvəli oğlu Qəmərlinski 1896-cı il yanvarın 15-də İrəvanda anadan olmusdur. Məmədvəli oğluna çar ordusunun generalı olmuş atası Əlinin adını qoymusdur. Məmmədvəli dövrünün seçilən maarifçilərindən, ziyalılarından idi. Əli ilk təhsilini evdə atası Məmmədvəlidən almışdı. 1901-ci ildə atası Məmmədvəlinin dərs dediyi İrəvan ikisinifli rus-tatar (türk) məktəbinə daxil olmus və buranı uğurla bitirmişdir. 3 iyun 1907-ci ildə Ə.Qəmərlinskiyə məktəbin himayəçisi Abbasqulu xan İrəvanskinin, məktəbin müdiri Həşim bəy Nərimanbəyovun, ilahiyyat müəllimi Axund Abdulla Qazıyevin, Azərbaycan dili müəllimi atası Məmmədvəli Qəmərlinskinin, Hüseyn Şadlinski və Anatoli Rusalovun imzası ilə verilən "şəhadətnamə"də müxtəlif fənlərdən aldığı aşağıdakı qiymətlər yazılmışdır: İlahiyyat - 5, Rus dili - 5, Azərbaycan dili - 5, Tarix - 5, Coğrafiya - 4, Təbiət - 4, geometriya - 4, hüsnxətt - 5, rəsmxətt - 5. Bu qiymətlər həm də onun istedad və bacarığının göstəricisidir. Sonra isə İrəvanda Puşkin adına şəhər ibtidai məktəbinə daxil olmuş və 1912-ci ildə buranı da uğurla bitirmişdir. Bəzi mənbələrdə Əli Qəmərlinskinin İrəvan oğlanlar gimnaziyasını bitirməsi haqqında verilən məlumatlar yanlışdır. XIX əsrin ortalarından Cənubi Qafqazda başlayıb getdikcə inkişaf edən maarifçilik hərəkatının ideyaları gənc Əlidə öz təsirini buraxırdı.

Əli Qəmərlinski 1912-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Burada dövrün qabaqcıl fikirli gəncləri ilə birlikdə təhsil almışdı. Seminariyada oxuduğu dövrdə ən yüksək nizam-intizamlı tələbələrdən biri olub. Burada görkəmli maarif xadimi F.Köçərlinin tələbəsi olmuş Əlinin ana dilinə, ədəbiyyata və yaradıcılığa olan marağının qüvvətlənməsində müəlliminin böyük təsiri olmuşdur. Əli Qəmərlinski Qori Müəllimlər Seminariyasının hazırlıq sinfində təhsil alan tanınmış pedaqoq, professor Əhməd Seyidovla eyni vaxtda oxumusdur. Ə.Qəmərlinski seminariyanı bitirdikdən sonra təyinatla öz doğma Qəmərli kəndindəki ikisinifli məktəbə müəllim göndərilmiş, Zaqafqaziya məktəbləri direktorluğunun 1916-cı il oktyabrın 1-də 5822 nömrəli əmri ilə ilk dəfə olaraq pedaqoji fəaliyyətə başlamışdır. Bir ildən sonra İrəvan məktəbləri direktorluğunun 1 oktyabr 1917-ci il tarixli 1333 nömrəli əmri ilə vaxtilə təhsil aldığı İrəvan ikisinifli rus-tatar məktəbinə müəllim göndərilmişdir. O burada 1918-ci ilin yanvarın 9-dək çalışmışdır. 1918-ci il yanvar ayının 10-dan etibarən İrəvan maarif idarəsinin 220 nömrəli əmrilə Qəmərlidə açılan ibtidai məktəbdə fəaliyyətə başlamış, 1919-cu ilin may ayına kimi burada işləmişdir. Həmin dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı aksiyalar zamanı Əli müəllim də 1919-cu il may ayının 11-də Gəncə şəhərinə köçməyə məcbur olmuşdur. O burada Cavad bəy Rəfibəylinin müdiri olduğu 17 nömrəli məktəbdə pedaqoji fəaliyyətini davam etdirir. Gəncə şəhərinə köçən Əli Qəmərlinski Qafqaz canişinliyində mülki müşavir vəzifəsində çalışan Həsən bəy Əlixanovun qızı Münəvvər xanımla ailə həyatı qurur. Əli müəllim həyat yoldaşı Münəvvər xanımla birlikdə ömürlərini azərbaycanlı gənclərin təlim-tərbiyəsinə həsr etmişlər. Əli Qəmərlinskinin İrəvan dövrünü onun pedaqoji fəaliyyətinin birinci mərhələsi kimi xarakterizə etmək olar. Bu dövrdə onun pedaqoji fəaliyyəti böyük canlanma ilə müşayiət olunur.

Gəncə dövrü isə onun pedaqoji təcrübəsini daha da zənginləşdirmiş, müəllimlik ustalığını artırmışdır. 12 iyul 1920-ci il tarixdə Gəncə şəhər maarif idarəsinin 1158 nömrəli əmrilə şəhərin 8 nömrəli məktəbinə müdir təyin edilmişdir. 1 may 1921-ci il tarixdə Gəncə maarif şöbəsinin 32 nömrəli əmri ilə Şəmkir (Şamxor) qəza maarif şöbəsində məktəblər müdiri təyin olunmuşdur. O 1928-ci ilə kimi Şəmkir (Şamxor) qəza maarif şöbəsində məktəblər müdiri vəzifəsində çalışmaqla yanaşı, eyni zamanda 1922-ci il oktyabr ayının 17-dən Gəncə Xalq Maarif Komissarlığında müfəttiş vəzifəsini yerinə yetirmişdir. Əli müəllim 1925-ci ildə Gəncə Dəmiryol məktəbinin müdiri təyin olunmuş, eyni zamanda burada Azərbaycan və rus dilindən dərs demişdir.

1929-cu ildə Gəncə şəhər sovetinin deputatı, 1939-cu ildə isə şəhər icraiyyə komitəsinin üzvü olmuşdur. 1931-ci ildə isə Kənd təsərrüfatı İnstitutunun Azərbaycan dili kafedrasına assistent təyin edilmişdir. 1931-ci ildə öz ərizəsinə əsasən Kənd təsərrüfatı İnstitutundan çıxdıqdan sonra müxtəlif təhsil ocaqlarında çalışmış, 1937-ci ildən 1943-cü ilin aprelinədək 6 nömrəli məktəbdə və eyni zamanda Gəncə İkiillik Müəllimlər İnstitutunda rus dili üzrə assistent işləmişdir. 1943-cü il sentyabr ayının 1-dən etibarən Gəncə pedaqoji məktəbində Rus dili fənnini tədris etmişdir. 1944-cü il sentyabr ayının 1-dən Həsən bəy Zərdabi adına pedaqoji institutuna baş müəllim təyin edilmişdir. O, dərin biliyə malik, öz peşəsinin vurğunu olan hərtərəfli bir şəxs idi. Həmişə şagirdlərinə, tələbələrinə qarşı qayğı ilə yanaşar, onlarla davranışında nəzakətli olarmış. Əli müəllimin şagirdlərindən olan, uzun müddət Gəncə Dövlət Arxiv İdarəsində işləmiş Cəmilə xanım Heydərova müəllimini ehtiramla xatırlayaraq yazır: "Əli Qəmərlinski gözəl insan idi. O, mülayim, savadlı, təvazökar, şirindil, gülərüz bir müəllim kimi yadımda qalıbdır. Onu atamız qədər sevirdik".

Əli Qəmərlinskinin çox zəngin avtobioqrafiyası vardır. Onun yaradıcılığı, pedaqoji fəaliyyəti, həyatı ilə yaxından tanış olduqca gözlərin önündə, təsəvvüründə həyatın nə qədər keşməkeşli, dolanbac yollarından keçib fəaliyyətini uğurla davam etdirən böyük və bütöv bir şəxsiyyətin portreti canlanır, qəlbində böyük, əvəzsiz hüsn rəğbətlə. Əli Qəmərlinski "Əmək əlaçısı", "Böyük Vətən müharibəsində igidliyinə görə (1941-1945)" medalları ilə təltif edilmişdir. Əli müəllim 18 iyun 1956-cı ildə Azərbaycanın Əməkdar müəllimi adına layiq görülmüşdür. Əli müəllim müəllimliklə yanaşı həm də yaradıcılıqla məşğul olub. O, ədəbiyyatın dram janrında da qələmini sınayıb "Bəhlul Danəndə" adlı pyes yazmışdır. Təəssüflər olsun ki, Əli müəllimin yaradıcılıq nümunələrinin çoxu bir yerə toplanıb çap edilməmiş və onların sonrakı taleyi məlum deyildir. Fədakar maarif xadimi, pedaqoq Əli Qəmərlinski çox da uzun ömür yaşamamış, 1959-cu ildə vəfat etmiş, Gəncə şəhərinin Səbzkar qəbiristanlığında dəfn edilmişdir.



***Cəlal Zəngi***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Pxenyan müharibə hazırlığındadır?

## Şimali Koreya silahlarını modernləşdirir

Şimali Koreya Yaponiyanın Quru Özünümüdafiə Qüvvələri ilə ABŞ Dəniz Piyadaları Korpusunun keçirdiyi birgə hərbi təlimi qınayaraq, onu "müharibə məşqi" adlandırıb. Koreya Mərkəzi Xəbər Agentliyinin (KCNA) dərc etdiyi redaksiya məqaləsində Yaponiyanın "Qətiyyətli əjdaha 2026" təlimində iştirakı tənqid olunub və ölkə "işğal qabiliyyətini" gücləndirməkdə ittiham edilib.

Məqalədə fevral ayında keçirilmiş ABŞ-Yaponiya birgə təliminə də istinad olunaraq, Yaponiyanın ABŞ ilə hərbi əməkdaşlığı dərinləşdirməklə regionda gərginliyi artırdığı bildirilib.

**Müharibə təhlükəsi...**

KCNA iddia edib ki, Yaponiya aprel və may aylarında Asiya-Sakit okean regionunda ABŞ-ın rəhbərliyi ilə keçirilən çoxmillətli təlimdə ilk dəfə iştirak edərkən qonşu ölkələrə qarşı istifadə olunması nəzərdə tutulan uzun mənzilli raketləri "qabaqlayıcı zərbə" məqsədilə sınaqdan keçirib.

Nəşr Yaponiyanı mövcud mürəkkəb beynəlxalq vəziyyətdən "müharibə ölkəsinə çevrilməsini haqq qazandırmaq" üçün istifadə etməkdə ittiham edib və Tokionu ehtiyatsız hərbi siyasəti davam etdirəcəyi təqdirdə, "faciəvi sonluq"la üzləşə biləcəyi barədə xəbərdar edib. Məqalədə ABŞ-ın birbaşa hədəf alan fikirlərə yer verilməyib. Qeyd edək ki, iyunun 20-də Yaponiyanın cənub-qərbində yerləşən Okinava və Kyuşu adalarında başlayan "Qətiyyətli əjdaha 2026" komandanlıq, idarəetmə və çoxsahəli manevr imkanlarının təkmilləşdirilməsi məqsədilə hər il keçirilən ABŞ-Yaponiya birgə səhra təlimidir. Təlimin iyulun 1-də başa çatması gözlənilir.

**Donanma inkişaf etdirilir...**

Bu arada Şimali Koreya lideri Kim Çen In ölkənin növbəti beş il ərzində ildə iki böyük döyüş gəmisi inşa etməyi hədəfləyərək dəniz modernləşdirmə proqramını gücləndirəcəyini açıqlayıb. İyunun 24-də yeni esminesin istismara verilməsi mərasimində çıxış edən Kim Çen In, Şimali Koreyanın dəniz qabiliyyətlərini artırmaq üçün hər biri təxminən 5000 ton və "Çoe Hyon"a bərabər olan iki döyüş gəmisi inşa etməli olduğunu bildirib. Kim Çen In həmçinin qeyd edib ki, Pxenyan 5000 tonluq "Kang Kon" esmines istismara verməyə hazırlaşır və 10.000 tonluq strateji döyüş gəmilərinin hazırlanmasını davam etdirir. Qeyd edək ki, "Kang Kon" ötən il istismara buraxılmışdı və müəyyən problemlərdən sonra təmirə saxlanılmışdı. Şimali Koreya lideri donanmanın gücləndirilməsinin hərbi modernləşdirmə prosesinin əsas məqsədi olduğunu vurğulayıb. O, bir vaxtlar Şimali Koreya silahlı qüvvələrinin ən zəif qolu olan donanmanın əhəmiyyətli dərəcədə genişləndirilmiş imkanlarla yeni inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyib.

Şimali Koreya lideri bildirib ki, yaxın gələcəkdə donanma üçün ən əhəmiyyətli dəyişiklik onun rolunun, statusunun və əməliyyat əhatə dairəsinin genişləndirilməsi olacaq. O, ətraflı məlumat verməyib, lakin Şimali Koreya donanmasının imkanlarının "bütün təsəvvürlərdən daha yüksək" səviyyəyə qaldırılacağını vurğulayıb. Kim Çen In həmçinin donanmanın nüvə imkanlarının inkişafının müəyyən bir yol xəritəsinə uyğun olaraq davam etdiyini və Şimali Koreyanın strateji çəkindirmə qabiliyyətinin gücləndirilməsinə töhfə verəcəyini vurğulayıb.

**Yeni silahlar sınaqdan keçirilir...**

Şimali Koreya yalnız müdafiə qabiliyyətli deyil, həm də uzun mənzilli hücum silahlarını modernləşdirməyə davam edir. Koreya Mərkəzi Xəbər Agentliyinin məlumatına görə, Kim Çen In quru qoşunlarının artilleriya və raket qüvvələrinin inkişafını prioritetləşdirib və beşillik plan çərçivəsində növbəti vəzifələri müəyyən edib. KCNA aydınlaşdırıb ki, Şimali Koreya lideri artilleriya və raket modernləşdirmə planının bir hissəsi olaraq müdafiə institutları tərəfindən keçirilən silah sınaqlarında iştirak edib və nəticələrdən məmnun olduğunu bildirib. KCNA-nın məlumatına görə, təlimlərdə Şimali Koreya ordusunun arsenalını modernləşdirməyə yönəlmiş çoxsaylı yeni silah sistemləri sınaqdan keçirilib. Test edilən hərbi texnikalar arasında 240 mm-lik 24 lüləli çoxlu buraxılışlı raket sisteminin təkmilləşdirilmiş versiyası, taktiki ballistik raketlər və 155 mm-lik özüyeriyən haubitsa da yer alıb.



Pxenyan administrasiyası bu yeni silahları Cənubi Koreya ilə sərhəd yaxınlığında yerləşdirir. May ayında ölkə həmçinin müasir müharibə üçün xüsusi olaraq hazırlanmış süni intellektlə təchiz olunmuş taktiki ballistik raketlər, artilleriya raketləri və dəqiq idarə olunan kruiz raketlərini əhatə edən birləşmiş sınaqlar keçirib.

***SADİQ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Təhlükəsiz istirahət üçün...

## Dənizdə boğulmaların qarşısını necə almaq olar?

Yayın gəlişi ilə istirahətə və sərinləməyə olan ehtiyac minlərlə insanı dəniz sahillərinə üz tutmağa vadar edir. Lakin yayın gətirdiyi istirahət əhval-ruhiyyəsi hər il olduğu kimi bu il də acı xəbərlərlə kölgələnir. Çimərlik mövsümünün açılmasından bir neçə həftə keçməsinə baxmayaraq, ölkədə küləkli hava şəraiti səngimir - bu isə özlüyündə suda boğulma hallarını nəzərəçarpacaq dərəcədə artırıb. Demək olar ki, hər gün müxtəlif bölgələrdən dənizdə və ya digər su hövzələrində baş verən faciələrlə bağlı məlumatlara rast gəlirik.



Mütəxəssislər və aidiyyəti qurumlar dəfələrlə xəbərdarlıq etsələr də, təhlükəsizlik qaydalarına laqeyd yanaşma bu kimi faciələrə yol açır. Xüsusilə, küləkli və dalğalı hava şəraitində, eləcə də çimməyin qadağan olunduğu ərazilərdə suya daxil olmaq ölüm riskini dəfələrlə artırır. Buna baxmayaraq, bəzi vətəndaşlar xəbərdarlıqları nəzərə almır, həyatlarını təhlükə altına atırlar. Nəticədə adi bir istirahət planı saniyələr içində faciə ilə nəticələnir.

Qeyd edək ki, boğulma hallarının əksəriyyəti məhz nəzarətsiz çimərliklərdə, güclü axın olan ərazilərdə və ya təhlükəsizlik qaydalarına əməl edilmədiyi üçün baş verir. Bəzən isə insanlar üzmə bacarıqlarına həddindən artıq güvənir, dənizin təhlükəsini kiçik hesab edirlər. Təəssüf doğuran məqamlardan biri də odur ki, hadisə qurbanları arasında azyaşlı uşaqlar və gənclər də az deyil.

**İntihara bərabər addım...**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev bildirib ki, yalnız fəaliyyətinə icazə verilən çimərliklərə getmək lazımdır. Onun sözlərinə görə, çimərlik mövsümü başlamazdan əvvəl aidiyyəti qurumlar tərəfindən həmin ərazilərə baxış keçirilir, suyun dibinin akvatoriyası, relyefi və sualtı axınlar öyrənilir:

“Daha sonra suyun kimyəvi və bakterioloji nümunələri götürülür, əgər insanların həyat və sağlamlığı üçün təhlükə riski varsa, o zaman həmin çimərliyin fəaliyyətinə icazə verilmir. Fəaliyyətinə icazə verilən bütün çimərliklərdə isə xilasetmə və nəzarət xidməti olur. Ona görə də vətəndaşlar ilk növbədə bu amilə ciddi diqqət etməli, yəni fəaliyyətinə icazə verilən çimərliklərə üz tutmalıdırlar. Bir çimərliyə “icazə yoxdur” deyirlərsə, bu, sadəcə inzibati bir qərar deyil. Xilasedicisi və nəzarəti olmayan çimərliklərə daxil olmaq, birmənalı olaraq intihara bərabərdir”.

**5 qızıl qayda...**

E.Nurəliyev dəniz kənarında istirahət edənlər üçün mütləq riayət olunmalı olan ölüm-dirim qaydalarını açıqlayıb:

“Küləkli havada dənizə girməyin: Küləyin sürəti saniyədə 10-12 metri keçirsə, dalğalarla mübarizə aparmaq qeyri-mümkündür.

Üzmə sərhədlərini keçməməlidirlər: Sərhədi aşmaq həm xilasedicilərin görünüş məsafəsindən çıxmaq, həm də boğulma riskini pikə çatdırmaq deməkdir.

Spirtli içki və dəniz ölümcül kombinasiyadır: alkoqolun təsiri altında suya girmək reaksiyanı tamamilə sıfırlayır.

Nəzarətsiz ərazilərdən uzaq durun: Xilasetmə postu olmayan yerdə sizə heç kim kömək edə bilməyəcək.

Uşaqları bir saniyə belə nəzarətsiz qoymayın: valideynlərin əyləncəyə qapılması çox vaxt faciə ilə bitir”.

**Dünya statistikası: qurbanların 95%-i eyni səhvi edir**

Ekspert dünyada hər il yaşanan çimərlik faciələrinin qorxulu statistikasını da diqqətə çatdırıb: “Hər il dünyada 400 minə yaxın insan suda boğularaq həyatını itirir. Ən dəhşətlisi odur ki, bu ölüm hallarının 95 faizi məhz nəzarətsiz və qadağan olunmuş çimərliklərin payına düşür. Suda boğulmaların 70 faizinin səbəbi isə əlverişsiz hava şəraitinə məhəl qoymamaqdır.

Bu rəqəmlər bir daha sübut edir ki, dəniz qayda pozuntularını və səhlənkarlığı bağışlamır. İstirahətin faciəyə çevrilməməsi üçün çimərlik seçimini planlı və şüurlu şəkildə etmək hər bir vətəndaşın öz əlindədir”.

**Gücləndirilmiş iş rejimi...**

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin bu yaxınlarda verdiyi məlumata görə, qurum 2026-cı il çimərlik mövsümünə tam hazırdır: “Aprel ayından etibarən sahilboyu ərazilərdə monitorinqlər keçirilib və təhlükəli çimərlik sahələri müəyyənləşdirilib. Nəzarətdə olan və ictimai çimərliklərdə dalğıclar tərəfindən sualtı müayinələr və təmizləmə işləri aparılıb. Eyni zamanda üzmə sərhədlərini göstərən nişanlar və təhlükəsizlik barədə maarifləndirici lövhələr quraşdırılıb. Həmçinin xilasetmə



texnikası və dalğıc-axtarış avadanlıqları tam işlək vəziyyətə gətirilib. Xidmət əməkdaşları mayın 15-dən etibarən gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər”.

Qurum bir daha vətəndaşların diqqətinə çatdırır ki, yalnız xilasedicilərin növbə çəkdiyi nəzarət olunan çimərliklərdən istifadə etsinlər. Küləyin sürəti saniyədə 10 metrdən artıq olduqda, hava qaraldıqdan sonra suya girmək olmaz. Bundan başqa, xilasedicilərin göstərişlərinə və çimərlikdə yerləşdirilmiş təhlükəsizlik lövhələrinə əməl etmək vacibdir.

*Yeganə BAYRAMOVA*

## İtmişdir

Məmmədov Zaur Əbülfət oğluna məxsus Abşeron rayonu, Saray qəsəbəsi, İlqar Abdullayev küçəsi (Alimlər şəhərciyi) Bina-2, Blok-2, mənzil 132-yə verilmiş 29 may 2022-ci il tarixli müqavilə itdiyi üçün etibarsız sayılır.



# Sərinlik, yoxsa xəstəlik mənbəyi?

## Kondisionerin görünməyən zərərləri...

İsti havaları kondisionersiz təsəvvür etmək çətindir. Evlərdə, iş yerlərində, nəqliyyat vasitələrində bu soyutma vasitəsindən geniş istifadə edilir. Lakin kondisionerin verdiyi sərinlik qədər gətirdiyi “dərd-bəla” də nəzərə alınmalıdır. Qısamüddətli sərinliyin ardından ortaya çıxan fəsadlar da böyükdür. Kondisionerin istifadəsi zamanı qaydalara düzgün əməl edilmədikdə insan sağlamlığı üçün ciddi problemlər yarana bilər.

Bu etinasız yanaşma yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmə səbəb ola bilər. Eyni zamanda təmizlənməyən, nasaz işləyən kondisionerlər allergik soyuqdəymə, astma kimi xəstəliklər də yaratmaq qabiliyyətinə malikdir. Ən əsası, alimlərin araşdırmasına görə, kondisioner otaqdakı oksigeni məhv edir. Ona görə də, kondisionerin zərərli təsirlərini minimuma endirmək üçün onu işlədərkən arabir pəncərəni açaraq otağın havasını da dəyişmək lazımdır.

**Allergiyası olanlar - yaxın əyləşməyin...**

Kondisionerin zərərləri barədə “Yeni Azərbaycan”a danışan həkim Şahvələd Məmmədovun sözlərinə görə, bu cihaz işləyən otaqda havada ventilyasiya prosesi həyata keçmir. Kondisionerin filtrləri həmin otaqda olan toz, mikrob, bir sözlə, xəstəlik törədən nə varsa özünə yığır. Amma ventilyasiya olmadığından müəyyən müddətdən sonra həmin xəstəlik törədicilər yenidən “dirilir”: “Bu baxımdan, bir çox kondisionerlər sərinlətməklə yanaşı, xəstəlik də yayır. Ona görə hər bir kondisionerin təmizliyi diqqətdə saxlanılmalı, ona qulluq qaydalarına ciddi əməl edilməlidir. Bəzən bu filtrlərin illərlə təmizlənməməsi kimi hallar da baş verir - belə olan halda isə kondisioner yalnız soyuqdəymə yaratmaqla kifayətlənmir, həm də allergik xəstəlikləri “qızışdırır”. Allergik problemi olan insanlar kondisionerdən uzaq durmalıdırlar”.

**Karbon qazı yaranır**

Həkim qeyd edib ki, saatlarla kondisioner işlətmək düzgün deyil. Kondisioneri söndürdükdən sonra qapı-pəncərəni açıb otağı havalandırmaq lazımdır. Çünki kondisioner işləyən otaqda oksigenlə yanaşı, karbon qazı da yaranır ki, bu da insan orqanizmi üçün ziyanlıdır: “Bundan əlavə, kondisioner otaqdakı havanı qurudur. Onu elə tənzimləmək lazımdır ki, hava daha çox tavana istiqamətlənsin. Çünki birbaşa kondisionerdən gələn sərin havanın altında oturmaq və ya uzanmaq mütləq əzələ-oynaq ağrıları yaradacaq, yaşlı insanlarda isə xroniki xəstəlikləri kəskinləşdirəcək. Hətta bu kimi problemləri olmayanlar belə soyuq hava axınının altında saatlarla otursalar boyun və kürək nahiyəsində ağrılar hiss edəcəklər. Kondisionerin altında isə yatmaq qətiyyən olmaz. Çünki yuxu zamanı orqanizmin fəaliyyəti zəifləyir, müqaviməti aşağı düşür”.

**Körpə olan otaqda kondisioner işlətmək olmaz**

Ş.Məmmədov onu da bildirib ki, bir yaşadək uşaqlar olan otaqda kondisioner işlətmək olduqca ziyanlıdır. Böyüklərin orqanizmi yuxarıda sadalanan fəsadlara qarşı mübarizə aparmaq gücündədirsə belə, uşaq orqanizmi çox kövrəkdir: “Kiçik yaşlı, xüsusən də südəmər uşaqlar olan yerdə kondisioner işlətmək olmaz. Körpəli ailələr bunu nəzərə almalıdırlar. Yay aylarında təmiz havanın uşaq orqanizmi üçün böyük əhəmiyyəti var. Uşağı uzun müddət qapalı məkanlarda, kondisioner altında saxlamaq düzgün deyil. Birbaşa kondisionerin soyutduğu məkana daxil olmaq da mühüm fəsadlara yol açır. Əgər bayırdan gəlmisinizsə, kondisioneri bir müddətlik söndürmək lazımdır. Bəzən bir müddət kondisionersiz rejimə öyrəşəndən sonra otağı müəyyən dərəcə soyutmaq olar. Yəni, temperatur rejimini tənzimləmək lazımdır. 23-28 dərəcədə kondisioner sərin hava verir, soyutmur. İnsan bədəninə təsir etmir. Ancaq təəssüf ki, ictimai yerlərdə buna riayət etmirlər. Bu səbəbdəndir ki, son zamanlarda əzələ tutulması, boyun, baş ağrıları, burun tutulması halları artıb. Bu kimi halların yaranmasında isə kondisionerdən düzgün istifadə etməmək amili ön sırada dayanır”.

*Yeganə BAYRAMOVA*



## Azərbaycan gimnastları Dünya Kubokunda qızıl medal qazanıblar




Çinin Nankin şəhərində aerobika gimnastikası üzrə Dünya Kuboku keçirilib. AZƏRTAC xəbər verir ki, yarışda ölkəmizi fərdi proqramda Sara Əlixanlı, qarışıq cütlük proqramında isə Mədinə Mustafayeva və Vladimir Dolmatov təmsil ediblər.

Təsnifat mərhələsinin nəticələrinə əsasən, Sara Əlixanlı 17.900, Mədinə Mustafayeva və Vladimir Dolmatov cütlüyü isə 18.600 xal toplayaraq final mərhələsinə vəsiqə qazanıblar.

Finalda qarışıq cütlük 19.100 xalla rəqiblərini geridə qoyaraq qızıl medalın sahibi olub. Sara Əlixanlı isə 18.050 xalla 6-cı yerdə qərarlaşıb.

## CAR millisinin baş məşqçisi tarixə düşdü



ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi futbol üzrə dünya çempionatında Cənubi Afrika Respublikası (CAR) millisinin baş məşqçisi Huqo Bros yeni rekorda imza atıb.

AZƏRTAC xəbər verir ki, belçikalı mütəxəssis mundialın pley-off mərhələsində komandasının meydana çıxaran ən yaşlı (74 yaş 79 gün) baş məşqçi olub.

Bununla da Huqo Broos 2018-ci il dünya çempionatı zamanı Uruqvay millisini çalışdıran və həmin vaxt 71 yaşı olan Oskar Tabaresə məxsus rekordu yeniləyib. Tabares həmin mundialda yığmanı 1/4 final mərhələsinə yüksəltmişdi.

Qeyd edək ki, CAR millisi 1/16 finalda Kanada yığmasına 0:1 hesabı ilə məğlub olaraq mundialla vidalaşıb.

## Vinçentso Montellanın Türkiyə millisindəki gələcəyinə aydınlıq gəlib

Türkiyə Futbol Federasiyası (TFF) milli komandanın baş məşqçisi Vinçentso Montella ilə əməkdaşlığı davam etdirmək niyyətindədir.



AZƏRTAC yerli mətbuata istinadən xəbər verir ki, dünya çempionatından sonra federasiya rəhbərliyi italiyalı mütəxəssislə sentyabrda start götürəcək UEFA Millətlər Liqasına hazırlıq planını müzakirə edib. Tərəflər məşqçilər korpusunda müəyyən dəyişikliklərin edilməsinin vacibliyi ilə bağlı ortaq mövqeyə gəliblər.

Qeyd edilib ki, məşqçi heyətinə mentor kimi fəaliyyət göstərəcək yeni mütəxəssisin cəlb olunması nəzərdən keçirilir. Bundan başqa, fiziki hazırlıq üzrə məşqçilər arasında da dəyişikliklərin ediləcəyi istisna olunmur.

Montellanın komandanın oyun üslubunda da yeniliklər etməyi planlaşdırdığı bildirilir.

Qeyd edək ki, Türkiyə millisi ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi dünya çempionatında qrup mərhələsini 3 xalla dördüncü pillədə başa vuraraq turnirlə vidalaşıb.

## “Araz-Naxçıvan” afrikalı futbolçu ilə yeni müqavilə imzalayıb

“Araz-Naxçıvan” son iki mövsümdə komandanın heyətində çıxış edən İssuf Paro ilə yeni müqavilə imzalayıb.

Klubdan AZƏRTAC-a verilən məlumata görə, Burkino-Fasodan olan mərkəz müdafiəçisi 2026-2027-ci illər mövsümündə də “qırmızı-ağların”ın formasını geyinəcək.




Qeyd edək ki, “Araz-Naxçıvan” buna qədər Tərlan Əhmədli, Ömər Buludov, Slavik Alxasov, İbrahim Piriyev, Ülvi İsgəndərov, Rəşad Həsənov, Alberto Qarsia Fernandes, Alexandro Herrera, Rövlan Muradov və Luka Dumançiçlə müqavilə imzalayıb.

## Qrup mərhələsinin ən yaxşıları



Nüfuzlu “The Athletic” nəşri ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi dünya çempionatının qrup mərhələsinin ən yaxşı futbolçularının reytinqini dərc edib.

AZƏRTAC xəbər verir ki, siyahıda ilk “beşliy”ə Argentina, Fransa və Braziliya milli komandalarının üzvləri daxil edilib.

Reytinqə Argentina yığmasının kapitanı Lionel Messi başçılıq edir. İkinci pillədə Fransa millisinin hücumçusu Kilian Mbappe qərarlaşıb. Braziliya yığmasının vingeri Vinisius Junior üçüncü olub.

İlk “beşliy”i Fransa millisinin futbolçuları Usman Dembele və Maykl Olise tamamlayıblar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5348
Sifariş: 843
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova